

## Erməni vandalizminin azyaşlı qurbanları

10

# Qoşulmama Hərəkatı: ƏDALƏTLİ DÜNYA UĞRUNDA HƏMRƏYLİK!

2




Səs
№ 116 (6557) 2 iyul 2022-ci il. Qiymәti 60 qəpik

# Zəngəzur reallıqları: Bakı və Moskva İrəvanı tələsdirir




7

4



## Cavabdehlik məsuliyyəti: vətən, ana və ata qarşısında müqəddəs borc

7



## MEDİA 16 qəzetə maliyyə yardımı ayırır

11




## Sizə onlardan danışım...

## Sürücü-sərnişin münasibəti necə olmalıdır?

8



## Laçın dəhlizi ilə bağlı ŞAD xəbər - Gömrük-keçid məntəqəsi tikilir




## Azərbaycanın Qarabağda yeni əməliyyatlar aparması üçün daha bir ehtimal var!



14

Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcərdə etdiyi çıxışı və orada səsləndirdiyi bəyanatı ilk olaraq belə nəticəyə gəlməyə zəmin yaradır...

## Kəsilən qurbanlar hara gedir?

12






## "Barselona" teleyayımdan 267 milyon avro qazanacaq

*"Barselona" İspaniya La Liqasındakı oyunlarının yayımına dair televiziya hüquqlarının 10 faizini ABŞ-ın "Sixth Street Partners" şirkətinə satıb...*

16

## Dərini Günəş şüalarından qorumaq üçün bunları edin!

16

Havalar qızdıqca Günəş şüalarının dəriyə təsiri də artır. Günəş vannaları və ya qaralma adlanan proses ultrabənövşəyi şüaların təsiri nəticəsində dəri rənginin tündləşməsi və dərinin alt qatında melonin piqmentinin toplanmasıdır.



# Qoşulmama Hərəkatı: ƏDALƏTLİ DÜNYA UĞRUNDA HƏMRƏYLİK!

***Son günlər ölkəmiz ardıcıl olaraq yüksək səviyyəli beynəlxalq tədbirlərin keçirilməsinə ev sahibliyi edir. İyunun 30-da Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin ”Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi” mövzusuna həsr olunan Bakı konfransı Prezident İlham Əliyev cənablarının dediyi kimi: ”Burada - Bakıda biz Qoşulmama Hərəkatının Parlament Şəbəkəsini yaradırıq. Həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində əlavə bir addım olan Azərbaycanın bu təşəbbüsünü dəstəklədiyinə görə Qoşulmama Hərəkatına üzv olan dövlətlərə minnətdarlığımı bildirirəm”.***

### TOMAS DE REMENTERİA: ”PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ DÖVRÜNDƏ ATILAN ADDIMLAR QOŞULMAMA HƏRƏKATININ İNKİŞAFINA ÖZ TÖHFƏSİNİ VERDİ”




## Rəsmi xronika

Prezident İlham Əliyev ”Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 186 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev ”İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı”nın təsdiqi və ”İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 noyabr tarixli 1654 nömrəli Fərmanının ləğv edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev ”Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 527-VIQD nömrəli Qanununun tətbiqi və ”Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 338-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1374 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

## *İlham Əliyev: "Qoşulmama Hərəkatı beynəlxalq arenada daha fəal rol oynamaq üçün platforma da ola bilər"*



”Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatına sədrliyi dövründə bir çox mühüm addımlar atıldı. Bu addımlar Hərəkatın inkişafına öz töhfəsini verd”. Bunu Azərbaycanın ev sahibliyi etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının iştirakçısı, Çili Nümayəndələr Palatasının üzvü Tomas de Rementeria deyib.”Azərbaycanda olduğum üçün çox şadam. Bakı gözəl şəhərdir. Ötən illərdə Azərbaycan mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu gün çox gözəl tədbir olacağını düşünürəm”, - deyə T.Rementeria vurğulayıb.

### QOŞULMAMA HƏRƏKATININ ROLU YENİDƏN PREZİDENT İLHAM ƏLİYEVİN APARDIĞI XARİCİ SİYASƏT KURSU SAYƏSİNDƏ ARTMAQDADIR

Sirr deyil ki, bir sıra dövlətlərin vaxtilə soyuq müharibə dövründə iki siyasi-hərbi qütb arasında qarşıdurmaya cəlb edilməmələri üçün təsis etdiyi Qoşulmama Hərəkatı hazırda beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən birinə çevrilib. Əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan hərəkat konkret tarixi kontekstdə yaranmasına baxmayaraq, müasir dünyada da öz aktuallığını itirmir və hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rol oynayır. Qoşulmama Hərəkatının hazırda 120 üzvü, 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı var. Öz xarici siyasətində heç bir hərbi alyansa qoşulmamaq istiqamətini seçmiş Azərbaycan 2011-ci ildən Qoşulmama Hərəkatının üzvüdür. Azərbaycan Qoşulmama Hərəkatına 2019-cu ildən sədrlik edir. Onu da vurğulamaq lazımdır ki, beynəlxalq aləmdə baş verən proseslərin məntiqi elədir ki, məhz indiki vaxtda, dünyanın çoxqütblü olduğu, geosiyasi xəritədə yenidən qarşıdurma vəziyyətində olan bloklar və koalisiyalar yarandığı şəraitdə ”soyuq müharibə” başa çatandan sonra bir qədər zəifləmiş Qoşulmama Hərəkatının rolu yenidən Prezident İlham Əliyevin apardığı xarici siyasət kursu sayəsində artmaqdadır. Digər tərəfdən, 2011-ci ildə Qoşulmama Hərəkatına daxil olmağımızla bağlı qərar Azərbaycan üçün xarici siyasət davranışında prioritet yeri tutan Ermənistanla münaqişə kontekstində çox vacib idi. Hadisələr göstərdi ki, Prezident İlham Əliyev 10 il əvvəl Azərbaycanı dünyanın ən böyük ikinci təşkilatına üzv etməklə illər sonrakı qələbənin əsasını qoydu. Prosedura görə, Azərbaycanın sədrlik müddəti 2022-ci ildə bitməlidir, lakin hərəkata üzv dövlətlərin yekdil istəyi ilə bu müddət 2023-cü ilə qədər uzadıldı.

### PREZİDENT İLHAM ƏLİYEVİN QOŞULMAMA HƏRƏKATINA SƏDRLİYİNİN BİR İL UZADILMASI AZƏRBAYCAN LİDERİNİN QLOBAL NÜFUZUNDAN QAYNAQLANIR

Hərəkat üzvlərinin Azərbaycan sədrliyinin əlavə olaraq bir il müddətinə uzadılması haqqında qərarı həm də Azərbaycanın ədalətə, beynəlxalq hüquqa və multilateralizmə əsaslanan sədrliyinə verilən obyektiv və yüksək qiymətdir. Azərbaycan isə öz növbəsində QH ölkələrinin bu etimadını yüksək qiymətləndir və təşkilata sədrliyini uğurla davam etdirir. Bu qərar Azərbaycanın və Azərbaycan lideri İlham Əliyevin qlobal nüfuzundan qaynaqlanır. Və təbii ki, bu nüfuz Prezident İlham Əliyevin Azərbaycanın hərəkata sədrliyi dövründə həyata keçirdiyi siyasətin nəticəsində əldə olunub. İndi isə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis edilməsi də bunun göstəricisi hesab oluna bilər. Sirr deyil ki, Hərəkat son on illərdə ən qüdrətli çağını məhz Prezident İlham Əliyevin sədrliyi dönəmində keçirir. Hərəkata sədrliyi dövründə Azərbaycanın Qoşulmama Hərəkatına üçün müfəssəl və ambisiyalı qlobal fəaliyyət planı hazırlaması, COVİD-19 pandemiyasının dünyanı bürüməsi, yeni vəziyyətə Azərbaycanın cəld və adekvat reaksiyası, Azərbaycan pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi istiqamətində irəli sürdüyü beynəlxalq təşəbbüslər Prezident İlham Əliyevin dövlətimizin nüfuzunu yüksəlməsi istiqamətində uğuru kimi səciyyələndirilir. Budəfəki Zirvə Toplantısındakı çıxışı zamanı da Azərbaycan Prezidenti Ermənistanın 30 il ərzində apardığı işğalçılıq siyasətinə toxunaraq, bunu BMT və Qoşulmama Hərəkatının Bandunq prinsiplərinə zidd olduğunu qeyd etdi. Eyni zamanda, Ermənistanın beynəlxalq platformadakı növbəti ifşası zamanı Azərbaycan Prezidenti işğal dövründə Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində şəhər və kəndləri qəsdən dağıtdığını, bütün mədəni və dini abidələri məhv etdiyini bütün dünyanın diqqətinə çatdırdı.”Beynəlxalq münasibətlərdə tüğyan edən ikili standartlardan istifadə edən Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq təqribən 30 il ərzində Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlaya bildi. Həm öz ərazisində, həm də işğal etdiyi Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdi”, - deyə Azərbaycan Prezidenti çıxışında qeyd etdi. Bir sözlə, Azərbaycan Prezidenti İlham Əliyev budəfəki çıxış nitqində də ölkəmizə mühüm müsbət imic qazandırdı.

### “MƏN DƏ QOŞULMAMA HƏRƏKATINA ÜZV ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARI İLƏ MƏSLƏHƏTLƏŞMƏLƏRİMİ DAVAM ETDİRƏCƏYƏM”

Prezident İlham Əliyev Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Bakı Zirvə Görüşündə deyib: ”Hesab edirəm ki, Qoşulmama Hərəkatı təkcə ölkələr üçün maraqlarını müdafiə etmək və bir-birini dəstəkləmək platforması deyil, beynəlxalq arenada daha fəal rol oynamaq üçün platforma da ola bilər. Azərbaycan olaraq biz bunu görmək arzusundayıq və ümid edirəm ki, bizim hörmətli qonaqlarımız, Qoşulmama Hərəkatına üzv ölkələrin parlamentlərinin nümayəndələri bu işə töhfə verəcək və əlbəttə ki, mən də Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçıları ilə məsləhətləşmələrimi davam etdirəcəyəm”. Həmişə qlobal təşəbbüslər müəllifi Prezident İlham Əliyevin əməkdaşlıq və həmrəyliyə xidmət edən təşəbbüsləri beynəlxalq səviyyədə təqdir edilir. Xüsusilə də, uğurlu xarici siyasət Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsini, nüfuzunun davamlı olaraq artmasını təmin edib. İnkaredilməz faktdır ki, son 19 ildə Azərbaycan söz və nüfuz sahibi kimi qlobal proseslərdə aktiv mövqeyi ilə seçilir.

Belə ki, keçirilən Bakı konfransında Prezident İlham Əliyev Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycanın prioritetlərini açıqlayaraq qeyd edib ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi Bandunq Prinsipləri üzərində quracaq: ”Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq Prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür. Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir. Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi dövründə digər təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün səylər göstərəcək. Qoşulmama Hərəkatına üzv ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələr olduğundan Qoşulmama Hərəkatı çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi çox mühümdür”.

***RƏFİQƏ KAMALQIZI***

Təhlil

# Dünya Mediası: “Əliyev, BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasını dəstəkləyir”




*Dünyanın aparıcı KİV-ləri Prezident İlham Əliyevin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransındakı çıxışından yazır*










Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin ”Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi” mövzusuna həsr olunan Bakı konfransı Türkiyənin aparıcı kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub.

Anadolu Agentliyi başda olmaqla qardaş ölkə mediası Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana səfərini, eləcə də Bakıda keçirilən sözügedən konfransda iştirakını və dərin məzmunlu nitqlərini geniş işıqlandırıb.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransına dair müxtəlif xəbərlər yayan Anadolu Agentliyinin təqdim etdiyi ”Əliyev, BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasını dəstəklədiklərini söylədi” sərlövhəli materialda diqqətə çatdırıb ki, BMT və ATƏT-in fəaliyyətini tənqid edən Azərbaycan dövlət başçısı deyib: ”...Çünki bu, təkcə beynəlxalq hüququn təməl prinsiplərinin tam pozulması deyil, həm də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin kobud pozulması və onlara məhəl qoyulmaması halı idi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada erməni qoşunlarının bizim ərazimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Sual olunur ki, niyə bu qətnamələr icra edilmədi? Buna cavab verə bilən yoxdur və ya cavab vermək istəmir. Növbəti sual ondan ibarətdir ki, niyə BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün içərisində icra olunur, bizə gəldikdə onlar 28 il ərzində kağız üzərində qalır? Əgər cəsur azərbaycanlı hərbçilər torpaqlarımızı azad etməsə idi, həmin qətnamələr yəqin ki, daha 28 il ərzində kağız üzərində qalacaqdı.

Bu, BMT-nin və onun Təhlükəsizlik Şurası çərçivəsində islahatların aparılması məsələsini gündəmə gətirir. Çünki qətnamələr icra edilmirsə, onları qəbul etməyin nə mənası var. Biz islahatların tərəfdarıyıq və hesab edirəm ki, bu, Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində müzakirə olunmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin siyasi üstünlük əsasında icra edilməsinə son qoyulmalıdır”.

Aşqabadda iyunun 29-da keçirilən Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının VI Zirvə Toplantısında Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı barədə türkdilli ictimaiyyəti geniş məlumatlandıran Anadolu Agentliyi dövlətimizin başçısının nitqindən mühüm məqamları ”Azərbaycan Prezidenti Əliyev: Zəngəzur dəhlizi artıq reallığa çevrilir” sərlövhəli informasiya şəklində təqdim edib.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin ”Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi” mövzusuna həsr olunan Bakı konfransı ərəb mətbuatının diqqət mərkəzindədir.

Misirin rəsmi MENA agentliyi, ”Əl Diplomasi”, ”Əl Bələd”, ”Şuruq”, ”Əxbar Əl Yom” və digər mətbu orqanları Bakı konfransının açılış mərasimində Misir Senatının spikeri Əbdel Vahab Əbdel Razeqin çıxışına geniş yer verib. Xəbərlərdə qeyd olunub ki, parlamentin yuxarı palatasının rəhbəri Prezident Əbdülfəttah əs-Sisinin qardaş salamını və iki ölkə arasında əlaqələrin 30 illiyi ilə bağlı təbrikini Azərbaycanın dövlət başçısı İlham Əliyevə çatdırıb. O, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatının sədrliyi dövründə qazandığı uğurları yüksək qiymətləndirib, Misirin 1955-ci il Bandunq Konfransının prinsiplərinə sadiq olduğunu vurğulayıb.

Misirin ”Əl Diplomasi” portalı AZƏRTAC-a istinadla Bakı konfransının açılışı barədə ərəb dilində xəbəri və Prezident İlham Əliyevin çıxışının ingilis dilində tam mətnini yerləşdirib. Küveytin rəsmi KUNA agentliyi, ”Kuwaitpress”, ”Q8Hashtagat”, ”Dasman” qəzet və portalları Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında Prezident İlham Əliyevin çıxışının xülasəsini, habelə Küveyt Milli Assambleyasının spikeri Marzuq Al Ğanimin tədbir çərçivəsində keçirdiyi görüşlər haqqında məlumatları dərc edib. KUNA agentliyinin saytında yerləşdirilmiş xəbərdə dövlətimizin başçısının BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatının əhəmiyyəti, Azərbaycanın öz torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü təmin etməsi, ölkəmizin hərəkata sədrliyi dövründə səmərəli fəaliyyəti barədə fikirlərinə geniş yer ayırıb.

İordaniyanın rəsmi Petra agentliyi, ”Əl Ənbat”, ”Oroba” qəzetləri də Bakı konfransında Prezident İlham Əliyevin çıxışından əsas məqamları, həmçinin bu ölkənin Senatının spikeri Faysal Al Fayezin çıxışının xülasəsini yayımlayıb. Xəbərlərdə vurğulanıb ki, ölkəmizin ev sahibliyi etdiyi bu mötəbər tədbir Azərbaycanın artan beynəlxalq nüfuzunun daha bir təzahürüdür.

Əlcəzairin rəsmi APS agentliyi, ”Əl Hərir”, ”Şuruk” qəzetləri AZƏRTAC-a istinadla Bakı konfransının açılış mərasimi barədə xəbərlər, habelə bu ölkənin Xalq Milli Assambleyasının spikeri İbrahim Buqalinin tədbir zamanı müxtəlif ölkələrin parlament rəhbərləri ilə görüşləri haqqında məlumat yayımlayıb. Səudiyyə Ərəbistanının rəsmi SPA agentliyi bu ölkənin Şura Məclisinin spikeri Şeyx Abdulla bin Məhəmməd bin İbrahim Əl Şeyxin də iştirak etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransı haqqında geniş xəbər yayımlayıb.

Yaponiyanın ”ajmedia.jp” portalı Azərbaycanda təşkil edilən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransı barədə məlumatlar yayıb.

Belə ki, yapon və ingilis dilində yayılan məlumatlarda iyunun 30-da Heydər Əliyev Mərkəzində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının işə başladığı qeyd edilir. Bildirilir ki, konfransın ilk günündə bu mühüm beynəlxalq tədbirdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev təşkilatın qarşısında duran çağırışlar və təşkilata rəhbərlik edən Azərbaycanın təklifləri barədə məlumat verib.

Qeyd edilir ki, ”Dünyada sülhün və dayanıqlı inkişafın təşviqində milli parlamentlərin rolunun gücləndirilməsi” mövzusuna həsr olunan konfransa 40-dan çox ölkənin parlament nümayəndə heyətlərinin, 9 beynəlxalq parlament təşkilatının təmsilçiləri qatılıblar.

Üç gün davam edəcək konfransda ”Bakı Bəyannaməsi” və ”Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin İş Qaydalarına dair Nizamnamə” qəbul olunacaq, təşkilatın rəsmi loqosu və bayrağı təsdiq ediləcək, qurumun sədri və sədr müavinləri seçiləcək. Bildirilir ki, tədbirdə iştirak edən nümayəndə heyətləri rəhbərlərinin ölkə rəsmiləri ilə görüşləri nəzərdə tutulub.

***İctimai xadim, şairə, 2007-ci ildən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, 2007-ci ildən Baku jurnalının təsisçisi və baş redaktoru, 2011-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoqunun baş koordinatoru, Rusiyadakı Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvü, Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq ictimai birliyinin (IDEA) təsisçisi və sədri kimi vəzifələri icra etmək cəsarət, potensial və istedad tələb edir.***

# Cavabdehlik məsuliyyəti: vətən, ana və ata qarşısında müqəddəs borc









Bu məsuliyyəti üzərinə çox gənc yaşlarından götürən Leyla Əliyeva qısa bir zamanda öz əməli fəaliyyəti ilə seçildi. Leyla xanımın yetişdiyi mühit qısa bir zamanda onun uğurlar qazanmasına səbəb oldu. Onun tərcümeyi-halına nəzər salsaq bunun şahidi olaraq. Belə ki, 3 iyul 1984-cü ildə anadan olan Leyla Əliyeva orta məktəbi bitirdikdən sonra Avropa Biznes Məktəbinə (ESB) daxil olub. İsveçrə və Böyük Britaniyada təhsil aldıqdan sonra 2006-2008-ci illərdə Rusiyada Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda politologiya fakültəsində dünya siyasəti üzrə magistr təhsili alıb. Tələbəlik illərindən başlayaraq Leyla xanım Əliyeva ictimai fəaliyyət ilə məşğul olub. 10 may 2007-ci ildən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəridir. Elə həmin il dekabrın 19-da Moskvada "Baku" jurnalını təsis edib. 2008-ci il mayın 8-dən start götürmüş "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarıdır. 2008-ci ilin mayından İslam Konfransı Təşkilatı Gənclər Forumunun baş koordinatoru vəzifəsində çalışır. 2009-cu il aprelin 18-də Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) sədri vəzifəsinə seçilib. 2010-ci ilə qədər MQİMO-da Azərbaycanlılar Klubunun sədri olub. 2011-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti vəzifəsini icra edir.

"Düşünürəm ki, nəyəsə inanırsan və nəyisə çox arzulayırsansa, ona nail olacaqsan". Bu sözlərin müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevadır. İllərdir ki, fəaliyyəti ilə gənclərə, yaşıdlarına örnək olan Leyla xanım öz düşüncəsi, intellektual səviyyəsi ilə nümunəyə çevrilərək, məsuliyyət anlayışını hər addımında unutmur. Cavabdehlik məsuliyyəti: ata, ana, vətən qarşısında olan müqəddəs borcun yerinə yetirilməsi, reallaşması. Təbii ki, müqəddəs borc və vəzifələrin yerinə yetirilməsində ailədə, cəmiyyətdə insanın necə formalaşması önəmlidir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya nümayəndəliyinin rəhbəri, "Baku" jurnalının təsisçisi, "Xocalıya ədalət" kampaniyasının təşəbbüskarı, Islam Konfransı Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisi, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri olan Leyla Əliyeva. Həyata keçirdiyi layihələrin hər birində böyük ideyalar dayanır.

## "İNSAN VƏ TƏBİƏT MALİK OLDUĞUMUZ ƏN DƏYƏRLİ NEMƏTLƏRDİR"

Leyla Əliyeva IDEA İctimai Birliyinin sədri olaraq təbiətin qorunması istiqamətində bir sıra layihələrə imza atıb. İDEA ətraf mühit kampaniyası regionda ətraf mühit məsələləri ilə məşğul olan ən böyük təşkilatdır.

Bu kampaniya çərçivəsində BMT İnkişaf Proqramı ilə saziş imzalanıb, Qəbələdə gənc ekoloqlar üçün beynəlxalq düşərgə keçirilib. Müasir dövrümüzdə ekologiya və ətraf mühitin qorunması vacib məsələlərdən olduğundan, ekoloji problemlərin nəticələri diqqətdədir. Leyla xanım Əliyevanın, müsahibələrinin birində dediyi kimi, biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa, hamısının qorunub- saxlanmasına birgə töhfə verməliyik.

"Hər bir insan təbiəti sevməli və ona qayğı göstərməlidir", - deyir Leyla Əliyeva. Təbiəti sevməməyin mümkün olmadığı qənaətindədir: "İnsan və təbiət malik olduğumuz ən dəyərli nemətlərdir". Belə prinsiplə ekolji mühitin qorunmasına çalışaraq kifayət qədər layihələrin müəllifinə çevrilib. Bu, "Bir planet - bir gələcək" devizini bir daha təsdiq edir. İDEA Azərbaycanda "Böyük Qafqaz beşliyi" deyilən, yox olmaq təhlükəsi ilə üzləşən beş heyvan növünü müəyyən edib. "Biz məhv olmaq təhlükəsi ilə üzləşən heyvanların yox olmasının qarşısını almağa çalışırıq", - deyərək ovçuluğun bütün dünyada mövcudluğunu dilə gətirib: "Bu, qəbul edilləndir və bəzən hətta faydalıdır. Lakin adları "Qırmızı kitab"a daxil olan heyvanlar öldürülməməlidir, onlar qorunmalıdır. Bunun üçün biz fəal təbliğat işi aparırıq, izah edirik, danışırıq. Ən başlıcası bu haqda düşünməkdir. Ceyranların reproduksiyası ilə bağlı bizim layihələrimiz olub. Mənim üçün ən vacib layihələrdən biri də Qafqaz bəbirinin qorunub saxlanmasıdır".

Bu gün Leyla Əliyevanın tapşırığı ilə IDEA işğaldan azad olunmuş ərazilərdə ekoloji vəziyyətin yenidən canlandırılması istiqamətində də işlər görəcək.

## "TƏBİƏTİN GÖZLƏMƏK ÜÇÜN VAXTI YOXDUR"

IDEA İctimai Birliyinin təşkilatçılığı ilə "Bizim həyət" layihəsi reallaşıb. Layihənin əsas məqsədi ekoloji cəhətdən təmiz və abad həyətlərin modelləşdirilməsi, yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır. Leyla xanım Əliyeva çıxışlarının birində bildirib ki, bu məsələləri hələ sinif otaqlarından tədris etmək lazımdır. Təbii ki, təmiz ətraf mühit təmiz və saf cəmiyyətdən başlayır. Bu baxımdan, insanlara belə fikirləri aşılamaq lazımdır.

"Təbiətin gözləmək üçün vaxtı yoxdur. Biz bunu indi etməliyik", - deyən Leyla Əliyeva hər bir insanın ətraf mühitin qorunub saxlanılmasına töhfə verə biləcəyinə əminliyini ifadə edib.

## HƏR BİR İŞİN ƏSASINDA ƏN ƏSASI SƏMİMİ, SAF VƏ İNSANİ MÜNASİBƏTLƏR DAYANIR

Rusiyanın azərbaycanlı gənclərinin təşkilatlanmasında Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) xüsusi rolu var. RAGT yarandığı gündən özünü müasir cəmiyyətin işgüzar və lazımlı strukturu kimi təqdim edir və Azərbaycanın məxsus olduğu dəyərlər Rusiyada nümayiş olunur. Rusiyanın bir sıra şəhərlərində azərbaycanlı gənclər klubları fəaliyyətdədir. Belə ki, Moskvada, Sankt-Peterburqda, Arxangelsk, Tver, İvanov, Yekaterinburq və digər regionlarda yerləşən təşkilatlar gənclərin həyatının bütün istiqamətlərini əhatə edir. Təhsil, idmanla yanaşı, RAGT sağlamlığa və sağlam həyat tərzinə də böyük diqqət ayırır. "Qanının milləti yoxdur" aksiyası çərçivəsində qurum könüllüləri ehtiyacı olan bütün şəxslərə təmənnasız qan veriblər. RAGT, həmçinin, "Sağlamlığına əmin ol - xəstəliyə "YOX" de" aksiyasının təşkilatçısıdır.

Ardı Səh. 5

# Cavabdehlik məsuliyyəti: vətən, ana və ata qarşısında müqəddəs borc






Əvvəli-Səh-4

Gördüyü işlər və həyata keçirilən layihələr nəticəsində RAGT-ın fəaliyyəti və onun rəhbəri Leyla Əliyevanın təşkilatçılıq istedadı yüksək qiymətləndirilir. Qurum sivilizasiyaların və mədəniyyətlərin yaxınlaşmasına, beynəlxalq gənclər dialoquna, habelə, Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə müsbət töhfələrini verir. Hər bir işin əsasında ən əsası səmimi, saf və insani münasibətlər dayanır. Leyla xanım müsahibələrinin birində onun bu qədər fəal, uğurlu təşkilat olacağını gözləmədiyini bildirib: "RAGT Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatıdır. Amma bu, eyni zamanda həm də sevgi - xalqların, insanların qarşılıqlı sevgisi deməkdir. Həqiqətən də, azərbaycanlı gəncləri bir araya gətirmək, onların Rusiya cəmiyyətinə inteqrasiyasına və Azərbaycan mədəniyyətini Rusiyada layiqincə təmsil etməsinə köməklik göstərmək mümkün oldu".

Azərbaycanın milli-mənəvi dəyərlərini təbliğ etmək, Azərbaycanın ədalətli mövqeyini, xalqımızın qəhrəmanlıq tarixini, onun coğrafi-ərazisini tanıtmaq baxımından həyata keçirdiyi layihələr həmişə yüksək qiymətləndirilib. Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardımçı olan nümayəndəlik Azərbaycan həqiqətlərini dünyaya çatdırılmasında bir vasitəçi və ötürücü oldu. "Xocalıya ədalət" kampaniyası çərçivəsində dünya ölkələrində soyqırımına həsr olunmuş silsilə tədbirləri reallaşdırdı. Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" rep üslubunda yazılmış mahnı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bir vasitə oldu. Bu gün onun təşəbbüsü ilə Koreya dilində Xocalı soyqırımı haqqında sayt fəaliyyət göstərir. "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası çərçivəsində görülmüş işlər nəticəsində dünyanın bir sıra ölkələrində və ABŞ-ın ştatlarında Xocalı qətliamı soyqırımı kimi tanınıb. Eyni zamanda, faciə qurbanlarının xatirəsinə abidələr ucaldılıb və müxtəlif tədbirlər keçirilib. 2018-ci ildə Türkiyənin İstanbul şəhərinin Bağçalar rayonunda böyük ərazini əhatə edən Azərbaycan Dostluq Parkı açılmış və burada Xocalı soyqırımı abidəsi ucaldılmışdır. "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər Leyla Əliyevanın əsl vətənpərvərlik nümunəsinin göstəricisidir

Fondun vitse-prezidenti Leyla Əliyevanın fəaliyyətində milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, mədəniyyətlərarası dialoqun təşviqi, dini məbədlərin qorunması və bərpasına dəstək verilməsi də xüsusi diqqət çəkən məqamlardan biridir. Leyla Əliyevanın təşəbbüsü bir sıra ölkələrdə bu istiqamətdə mühüm addımlar atılıb. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin çoxşaxəli fəaliyyətində də mədəniyyətlərarası dialoq, tolerantlıq, multikulturalizm məsələlərinə xüsusi diqqət yetirilir. Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın dəstəyi ilə Moskvada "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu. Bakı forumu" kitabının çapdan çıxması Azərbaycan reallıqlarını özündə ehtiva edən fakt kimi böyük diqqət və maraqla qarşılanmışdır. 2012-ci ilin noyabrında Londonda Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Avropa multikulturalizminin perspektivləri: Dinlərarası dialoq və dini tolerantlığın Azərbaycan modeli" mövzusunda konfrans Azərbaycanın bütün dünyada sülhün, firavanlığın təmsil olunması yönündə həyata keçirdiyi siyasətə sanballı töhfə olmuşdur.

## ƏMƏLİ FƏALİYYƏTİN QİYMƏTİ

Leyla xanımın gördüyü böyük işlər diqqətdən kənarda qalmayıb. 2011-ci ilin iyulunda Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunub. 2011-ci ilin noyabrında Nyu-Yorkda humanitar aksiyalarda fəal iştirakına görə, "Key to life" fəxri mükafatına layiq görülüb. 22 noyabr 2011-ci ildə BMT-nin sertifikatını və xüsusi vəsiqəsini alıb. 2013-cü ildə Ətraf Mühitin Mühafizəsi VII Beynəlxalq Layihə Olimpiadası (İNEPO-Avrasiya) Təşkilat Komitəsinin idarə heyəti tərəfindən "Ekoloji Mühitin Qorunmasına Görə" xüsusi Beynəlxalq Şərəf Mükafatı ilə mükafatlandırılıb. Həmin il Leyla Əliyeva III dərəcəli "Knyaginya Olqa" ordeni və "Volqoqrad vilayəti qarşısında xidmətlərə görə" medalı ilə təltif olunub. 2015-ci ilin mayında Leyla Əliyeva aclıqla mübarizə, ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının səmərəliliyinin artırılması, sağlam ərzaq sistemlərinin yaradılması kimi məqsədlərə nail olunmasına verdiyi töhfəyə görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Xoşməramlı Səfiri adına layiq görülüb. 2015-ci il oktyabrın 20-də Rusiya Federasiyasının "Puşkin" medalı ilə təltif edilib. 2016-cı il sentyabrın 28-də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Elmi Şurasının qərarı ilə bu ali məktəbin "Xidmətlərə görə" medalına layiq görülüb. Bu mükafatların sayı kifayət qədərdir. Hər biri də əməli fəaliyyətin qiymətidir.

## "UŞAQLAR VALİDEYNLƏRİNƏ İLK NÖVBƏDƏ HÖRMƏT ETSİNLƏR, ONLARDAN QORXMASINLAR"

Gördüyü işlərdən usanmır, amma ailəsinə də diqqət ayırmağı arxa plana salmır. "Mənim üçün övladlarım və ailəm hər şeydən vacibdir", - deyir Leyla Əliyeva. Aldığı dərsi öz övladlarına ötürməyi diqqətdə saxlayır: "Mən övladlarıma valideynlərimin mənə verdiklərini vermək istəyirəm. İstəyirəm ki, onlar daim məhəbbət və qayğı içində böyüsünlər. Bu, ən vacibidir. Dünyanın müxtəlif ölkələrinə saysız-hesabsız səfərlər etməli oluram. Bu zaman övladlarımı da özümlə aparıram. Ona görə də darıxmıram. Vaxtı isə tapmaq mümkündür. Əsas odur ki, hamı sağlam olsun".

Müsahibələrin birində ona ünvanlanan "Uşaqlıqdan öyrədilməsi zəruri olan tərbiyənin və təhsilin əsasları hansılardır?" sualına gəlincə isə Leyla Əliyeva belə cavablandırıb: "Mənim üçün olduqca vacibdir ki, uşaqlar valideynlərinə ilk növbədə hörmət etsinlər, onlardan qorxmasınlar. Buna görə də uşaqlar nəyisə düz etməyəndə onlara izah etməyə çalışıram. Həmişə seçim ixtiyarı verirəm. Hesab edirəm ki, onlara kifayət qədər çox azadlıq vermək lazımdır. Fikrimcə, anadan olandan insana doğrunu və yanlışı anlama qabiliyyəti Allah tərəfindən verilib. Bəzən valideynlər uşaqları qorumaq üçün onları həddən artıq himayə edirlər, məhdudiyyətlər və qadağalar qoyurlar. Mən onlara daha çox azadlıq verməyə çalışıram, xüsusən də onlar oğlan olduqları üçün. Qoy onlar müstəqil, sərbəst və güclü olsunlar".

Leyla Əliyevanın fəaliyyətindən söz açarkən əlbəttə ki. onun yaradıcılıq dünyasına da diqqət yetirilməlidir. Leyla Əliyeva rəssamlıq, rejissorluq kimi sahələrlə yanaşı, şeirlər də yazır. Leyla Əliyevanın "Sanki bir alovsan" şeirlər toplusu Türkiyənin nüfuzlu "BENGÜ" yayınları brendi ilə oxuculara təqdim olunan "Azərbaycan ədəbiyyatı"nın seçilən nəşrləri sırasına daxildir. Onun "Dünya yuxutək əriyir" şeirlər kitabı Bakıda Azərbaycan dilində, Tehranda farsca, Londonda ingiliscə, "Ulduzlar göylərdə düzülsəydi sırayla" kitabı Moskvada rusca, Minskdə Belarus dilində nəşr olunub və geniş oxucu kütləsinin sevgisini qazanıb. Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə Heydər Əliyev Fondunun vitse-prezidenti, şairə Leyla Əliyevanın "Dünya yuxutək əriyir" şeirlər kitabı Özbək dilinə tərcümə olunaraq Daşkənddə çap olunub. Kitabda "ön söz"də vurğulanır ki, şairə Leyla Əliyeva öz əsərlərində yaşadığı mühitdə baş verən hadisələri, yaşanan ağrıları, həyatın işığını və qaranlığını, xeyirini və şərini, sevincini və kədərini, yaxşılığı və pisliyi səmimi poeziyanın dili ilə oxucuya çatdırır. Nəşrdə şairə Leyla Əliyevanın Özbək dilinə tərcümə olunmuş "Mənə güc ver Allahım", "Elegiya", "Tək deyilsən", "Sevgi və nifrət", "Kor olmuşam", "Şeirim" "İnsanlar", "Getmə", "Bakı", və s. çoxsaylı şeirləri ilk dəfə olaraq Özbəkistan oxucularına öz ana dillərində təqdim olunur. Çoxşaxəli yaradıcılıq imkanlarına malik olan Leyla Əliyevanın doğulduğu mühit onda bu və ya digəri bacarıq və qabiliyyət, dözüm kimi keyfiyyətləri aşılamışdır. Ulu Öndər Heydər Əliyev kimi müdrik Şəxsiyyətin ailəsində böyüyən və bu nəslin təmsilçisi olan Leyla xanım öz əməli fəaliyyəti ilə, əlbəttə ki, seçilməli, prinsipial mövqeyini ortaya qoymalı idi. Müsahibələrinin birində ona verilən "Heydər Əliyev həyatınızda sizə ən çox kömək olan hansı məsləhəti vermişdi", - sualına "Mən indi başa düşürəm ki, nə qədər böyük bir İnsana yaxın olmuşam və nə qədər böyük bir İnsanla söhbətlərim olub", - deyə cavab vermişdi. "Hətta Onunla beş dəqiqə söhbət edənlər belə Ondan çox qiymətli dərs ala bilirdilər", - deyən Leyla xanım bildirib ki, Onu hər gün görürdüm: "Bu, heç nə ilə müqayisə olunmayacaq böyük təcrübə idi. Ən təəccüblüsü də bu idi. O, heç vaxt sənin nə etməli olduğunu demirdi, istəyirdi ki, sən həmişə özün qərar qəbul edəsən". Təbii ki, bu fikirlər bir daha göstərir ki, Leyla xanımın həyat məktəbinin təməli doğulduğu mühitdə qoyulub.

***Nəzakət ƏLƏDDİNQIZI***

***Azərbaycan Medianın İnkişafı Agentliyi çap mediası subyektlərinə və onlayn media subyektlərinə (veb-saytlara) dəstək layihəsi çərçivəsində elan edilmiş müsabiqənin nəticələrini açıqlayıb.***

# MEDİA-nın müsabiqəsində qalib gələnlərin TƏƏSSÜRATLARI





SİA MEDİA-nın müsabiqəsində qalib gələnlərin təəssüratlarınına öyrənməyə çalışıb:

**“Bakı Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev** bildirib ki, Medianın İnkişafı Agentliyi tərəfindən növbəti 6 aylıq müsabiqənin media orqanları arasında elan olunması və bunun növbəti 6 aylıq dövrün başlanğıcı olan ilk günündə elan edilməsi təbii ki, yaxşı bir haldır: ”Artıq Medianın İnkişafı Agentliyi öz missiyası çərçivəsində və nizamnaməyə uyğun fəaliyyətlərinin dəqiq şəkildə qrafikləşdiyinin şahidi oluruq. Bütün mərhələlərdə artıq gərəkli işlər gecikmədən həyata keçirilir. Bu da o deməkdir ki, MEDİA getdikcə öz nizamnaməsinə və missiyasına uyğun daha sistemli fəaliyyət platformasında qərarlaşır. Bu, onu deməyə əsas verir ki, Medianın İnkişafı Agentliyi öz missiyasında nəzərdə tutulmuş işləri gecikmədən həyata keçirəcək. Altı aylıq dövr üçün media orqanları arasında müsabiqənin elan olunması media orqanlarının fəaliyyətinə sistemlilik gətirir. Çünki müsabiqə nəticələrinin elə növbəti altı aylıq dövrün ilk günündə elan olunması artıq media orqanlarının işində hər hansı bir fasilənin yaranmaması üçün etibarlı təminatdır. Artıq müsabiqəyə sənəd vermiş bütün media orqanları bilir ki, müsabiqə yekunlarında kimklərin əldə etdiyi nəticə nədən ibarətdir və hər kəs müsabiqənin yekunlarına uyğun olaraq öz fəaliyyətini davam etdirəcək. Medianın İnkişafı Agentliyi elan etdiyi müsabiqə şərtlərində yer almış media orqanlarına, həmkarlarımıza uğurlar arzu edirəm”.



**”Lent.az” saytının redaktoru Səbinə Əvəzqızının** fikirlərinə görə, son illərdə, daha doğrusu Medianın İnkişafı Agentliyinin fəaliyyəti dövründə onlayn media subyektlərinə dəstəklə bağlı elan edilmiş müsabiqələr daha çox diqqətini çəkirdi: ”Burada əsas məsələ müsabiqənin güvən verməsi idi. Agentliyin məsələyə fərqli yanaşması şübhələrə əsas vermir. Bütün hallarda sağlam müsabiqələr sağlam rəqabət üçün şərait yaradır. Bununla müəyyən etmək olur ki, ölkədə öz işi ilə ciddi məşğul olanlar hansı orqanlardır. Bu isə media sahəsində peşəkarlığın inkişafına səbəb olacaq.

Ümumiyyətlə, qurumun ölkədə media uğruna gördüyü bütün müsbət işləri dəyərləndirirəm. Mediamızın daha səmərəli fəaliyyət göstərməsi üçün veb-saytlara dəstək layihəsi çərçivəsində elan edilmiş müsabiqə çox uğurlu addımdır. Müsabiqənin nəticələri demək olar ki, media cameəsində çox sevinclə qarşılandı. Bu siyahıda təmsil olduğum Lent.az saytı da var. Və bu bizim kollektiv üçün çox qürurvericidir. Hesab edirəm ki, agentliklə əməkdaşlığımız uğurlu alınacaq.

Son illərdə medianın əhatəsi o qədər genişlənib ki, bəzən oxucular seçim etməkdə çətinlik çəkirlər. Bəzən peşəkarlar bunun ciddi əziyyətini çəkirdilər. Agentliyin müsabiqəsinin nəticələri də bu problemin həllinə də müsbət təsirini mütləq göstərəcək”.



**”525-ci” qəzetin baş redaktoru Rəşad Məcid** bildirib ki, Medianın İnkişafı Agentliyi tərəfindən çap mediası subyektlərinə və onlayn media subyektlərinə (veb-saytlara) dəstək layihəsi çərçivəsində elan edilmiş müsabiqənin nəticələri sosial şəbəkələrdə çox müsbət qarşılanıb: ”Qəzetlər sırasında ”525-ci” qəzet də var. Bu, çox xoş oldu. Düşünürəm ki, son zamanlarda Medianın İnkişafı Agentliyinin üzərinə böyük yük düşür. Media subyektlərinin maliyyələşdirilməsi, ”Media haqqında” qanunun hazırlanması, bir sıra müsabiqələrin təşkil olunması, bunlar hamısı çox ciddi məsuliyyət tələb edən işlərdir. Jurnalistlər istedadlı və fərqli insanlardır. Bu baxımdan jurnalistlərlə ortaq nöqtə tapmaq, onları qane edəcək nəticələr ortaya qoymaq çətindir. Düşünürəm ki, Medianın İnkişafı Agentliyi bu işin öhdəsindən gəlir. Medianın İnkişafı Agentliyinin elan etdiyi çox müsbət reaksiya doğurur”.



**”Azxəbər.com” saytının baş redaktoru Hacıbəy Heydərli** Medianın İnkişafı Agentliyinin ədalətli seçimə görə təşəkkür edir. Hacıbəy Heydərli bildirib ki, ümumilikdə saytlar və qəzetlər üçün müsabiqələrin təşkil olunması, konkret maliyyə yardımının göstərilməsi, üstəlik, bu zaman obyektivliyi maksimum təmin etmək heç də asan iş deyil. Agentlik artıq dəfələrlə keçirdiyi müsabiqələrdə sübut edib ki, media subyektləri arasında fərq qoymur, hamıya eyni gözlə baxır, tərəfsizliyini qoruya bilir və ən nəhayət peşəkarlığa üstünlük verir.

Bu səbəbdən də MEDİA-nın müsabiqə nəticələri sosial şəbəkələrdə və cəmiyyətdə hər zaman təqdirlə qarşılanır. Bu müsabiqələr həm də Azərbaycanda peşəkar medianın formalaşmasına, jurnalistlərin daha da uğurlu şəkildə fəaliyyətinə hesablanıb. Sayt və qəzetlərin maliyyələşməsi ilə yanaşı jurnalistlər üçün təlimlərin, müsabiqələrin keçirilməsi bu sahədə peşəkarlığın artmasına töhfə verir. Qalib saytlara kriteriyaların qoyulması da mətbuatımızın inkişafına, oxucunun dəqiq və düzgün məlumat əldə etməsinə, eyni zamanda media subyektləri arasında sağlam rəqabətin yaranmasına yardımçı olur.

Ümumilikdə isə Azərbaycanda KİV-ə maliyyə dəstəyinin ayrılması dövlətimizin mediaya birbaşa qayğısının və dəstəyinin göstəricisidir Medianın İnkişafı Agentliyi bu müsabiqələrlə medianı yeni inkişaf mərhələsinə gətirib. Bu müsabiqənin bir müsbət tərəfi də odur ki, onlayn media subyektləri məhz MEDİA-nın dəstəyi ilə öz işlərini daha uğurlu və peşəkar səviyyədə qura bilirlər. Qalib olan bütün həmkarlarımızı təbrik edirəm, olmayanlara isə ruhdan düşməməyi və eyni əzmlə, eyni istəklə işlərini davam etməklərini arzu edirəm. Əminəm ki, növbəti müsabiqələrdə onların da adı qaliblər siyahısında olacaq”.

”Olaylar” qəzetinin baş redaktoru Yunus Oğuz qeyd edib ki, Medianın İnkişafı Agentliyinin elan etdiyi müsabiqələrdə obyektivlik görünür, yanaşma tərzi normaldır: ”Saytlarda və qəzetlərdə dərc olunmuş yazılara görə hər altı aydan bir qrant layihəsi ayrılır. Medianın İnkişafı Agentliyi elan etdiyi müsabiqə şərtlərində yer almış media orqanlarına, həmkarlarımıza uğurlar arzu edirəm”.



**”Demokrat.az” saytının baş redaktoru Vasif Həsənli** ədalətli seçimə görə MEDİA agentliyinə təşəkkür edir. O bildirib ki, siyahıya baxdıqda bunu görmək çətin deyil: ”Siyahıda yer alanların əksəriyyəti mövcud imkanları zəif, əlavə gəlir yerləri olmayan saytlardır. Halbuki, bu media resursları istər xəbər istehsalında, istərsə dövlət maraqlarının müdafiə olunması işində peşəkar fəaliyyəti ilə seçilir.

Media Agentliyi də seçiminin də məhz peşəkar fəaliyyətin stimullaşdırılması yönündə olduğunu görürür. Ən vacib məqam isə mediaya dövlət dəstəyinin ədalətli və daha obyektiv bölünməsi prinsipinin qorunmasıdır. ”Demokrat.az” saytının kollektivi, eyni zamanda həmkarlarımızın adından MEDİA Agentliyinə təşəkkür edirik”.

Qeyd edək ki, layihə çərçivəsində həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 5 000 manat, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə isə aylıq 15 000 manat məbləğində maliyyə yardımı göstərilir. Müsabiqədə iştirak edən onlayn media subyektlərinə (veb-saytlara) hər birinə ayda 3 min manat maliyyə yardımı ayrılacaq.

***Arzu Qurbanlı***

SORĞU

# Zəngəzur reallıqları: Bakı və Moskva İrəvanı tələsdirir




## *“İzvestiya" nəşri Rusiyanın dəhliz məsələsindəki iqtisadi maraqlarını da gizlətməyib*

Azərbaycan və Ermənistan dəmir yolu dəhlizi ilə Naxçıvana getməklə bağlı çoxdan razılaşma əldə ediblər. Avtomobil yolu ilə bağlı İrəvanın uzun-uzadı pauza götürməsi isə davam edir. Lakin iyunun cari ilin 3-də baş nazir müavinlərinin sonuncu görüşləri zamanı gələcək yolun istifadəsi ilə bağlı müəyyən razılaşmalar edilib, sadəcə 6 km-lik sahə istisna olunmaqla. Belə ki, orada yüksək dağlıqlar mövcuddur və Rusiya tərəfi həmin sahənin öyrənilməsi üçün öz ekspertlərini göndərib ki, sadə mühəndis işləri ilə bağlı öz tövsiyələrini versinlər. Bu barədə Rusiyanın ”izvestiya” nəşri adının açıqlanmadığı mənbəsinə istinadən yazıb.

### Həmin ərazilər 1992-ci ilə qədər Naxçıvan Muxtar Respublikasını Azərbaycanın Zəngilan rayonu ilə birləşdirən və Ermənistanın ərazisindən keçən sahələrdir

Bildirilir ki, avtomobil yolu Araz çayının ermənilər olan tərəfindən keçəcək. Yerdə qalan sahələrdə isə köhnə sovet xəritələri əsasında işlər aparılacaq. Həmin ərazilər 1992-ci ilə qədər Naxçıvanı Muxtar Respublikasını Azərbaycanın Zəngilan rayonu ilə birləşdirən və Ermənistanın ərazisindən keçən sahələrdir. Həmçinin, gələcək dəhliz boyunca Naxçıvanla Ermənistan sərhədindən keçəcək həmin ərazilər praktiki olaraq mövcuddur. - deyə mənbə qeyd edib.

Lakin o da faktdır ki, Bakı cari ilin martına Tehranla memorandum imzaladı və memoranduma əsasən Şərqi Zəngəzur iqtisadi rayonundan Naxçıvana qədər gedən yolun bir hissəsi İran ərazisindən keçməlidir. Məhz bundan sonra Ermənistan Bakı ilə danışıqlar prosesini sürətləndirməyə məcbur oldu. Mənbənin bildirdiyinə görə, baxmayaraq ki, bu variant reallıqda Ermənistan ərazisindən daha başa gəlir, lakin İlham Əliyev buna da hazır olduğunu nümayiş etdirdi və bununla Nikol Paşinyanın prosesi uzatmasına qarşı qətiyyətli addım atdı.

### Rusiya dumasının deputatı Kalaşnikov: “Yaxşı ki, razılaşdılar”

Bu arada, Rusiyanın dövlət dumasının soydaşlarla iş üzrə və Avrasiyaya inteqrasiya qrupunun, həmçinin MDB ilə əlaqələr komitənin rəhbəri Leonid Kalaşnikov ”İzvestiya” nəşrinə bəyan edib ki, Bakı ilə İrəvanın nəqliyyat dəhlizlərinin blokadadan çıxarılması ilə bağlı müəyyən razılıqlara getmələrini çoxdan gözləyirdilər. ”Yaxşı ki, razılaşdılar”, deyə Kalaşnikov bildirib. Rusiya nəşri qeyd edir ki, kommunikasiyaların blokadadan çıxması və inşaat işlərinin aparılması Ermənistanın cənub sərhədlərinin İran və Zəngəzurla birləşməsi ilə nəticələnəcək. Bu yol Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirir. ”Bu, ikitərəfli gündəlikdə ən problemli məsələlərdən biri idi. Rusiyanın və Avropanın Azərbaycana və Ermənistana vasitəçilikləri sayəsində 2020-ci ildə imzalanmış üçtərəfli razılaşmaların növbəti mərhələləri üçün imkanlar yarandı”, deyə rusiyalı deputat bildirib.

### İrəvan bu istiqamət üçün 200 milyon dollar ayıracaq

2021-ci ilin mayında Azərbaycan Culfa-Ordubad dəmir yolu istiqamətinin Naxçıvanla Ermənistanı birləşdirən hissəsindəki tikinti işlərini başa çatdırdı. Ermənistan 2022-ci ilin martına geodezik işlərin aparılması üçün Arazdəyən (ermənilər ”Yerasx”adlandırırlar) -Culfa-Ordubad-Mehri-Horadiz dəmir yolunun tikintisinə görə vəsait ayırdı. Erməni hissəsindəki dəmir yolunun uzunluğu 45 km olacaq deyə Ermənistanın baş nazirinin müavini Mger Qriqoryan bildirib.

Həmçinin bildirilir ki, İrəvan bu istiqamət üçün 200 milyon dollar ayıracaq. Naxçıvandan Azərbaycana olan yolun ümumi uzunluğu isə 340 km-i təşkil edəcək. Azərbaycan öz növbəsində dəmir və avtomobil yollarının 100 km-ni artıq inşa edərək tamamlayıb. Ermənistanla sərhədi birləşdirəcək məsafənin tamamlanmasına isə cəmi 60 km qalır.

### Ermənistanın məsul olduğu işləri icra etməkdən başqa heç bir yolu yoxdur

Beləliklə, Rusiya nəşrinin sözügedən mövzuya diqqət ayırmasının daha bir məqsədi budur ki, əslində Zəngəzur dəhlizinin açılması, ümumiyyətlə - həm dəmir yolunun, həm də avtomobil yolunun istifadəyə verilməsi Şimal qonşumuzun da iqtisadi maraqlarının təmin olunması üçün şərait yaradır. Hər halda, Bakının və Moskvanın bu məsələdə İrəvanı tələsdirməsi və üzərinə düşən öhdəlikləri vaxtında yerinə yetirməsi üçün tələblərini sərtləşdirməsi prosesin sürətlənməsinə zəmin yaradır. Ermənistanın isə məsul olduğu işləri icra etməkdən başqa heç bir yolu yoxdur.

**Rövşən RƏSULOV**

ANALİTİK-AKTUAL

# “Heydər Əliyev Fondu ilə əməkdaşlığa böyük önəm verilir"

“Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti çox möhtəşəmdir. Məhz bu səbəbdən Ulu Öndərin ideyalarının öyrənilməsi və bütün sahələrdə həyata keçirilməsi Azərbaycan üçün inkişaf, tərəqqi dəyərlərinin qorunub saxlanılması, yeniliklərin həyatımıza gətirilməsi deməkdir”. Bu sözləri S A-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə bildirib.

Onun sözlərinə görə, Heydər Əliyevin dünyasını dəyişməsindən sonra onun adına Fond təşkil edilməsi Ulu Öndərin siyasətini həyata keçirmək üçün böyük imkanlar açdı: ”Heydər Əliyev Fondu yarandığı ilk gündən insanların qayğıları dinlənilən və həll edilən yeni bir ünvana çevrildi. Onun təşkilatçılığı və iştirakı ilə Azərbaycanın müxtəlif bölgələrində qayğıya ehtiyacı olan insanlar üçün evlər tikildi, sosial lahiyələr həyata keçirildi. İnsanların konkret problemləri həll edildi, eyni zamanda Azərbaycanın mədəniyyətinin qorunub-saxlanılması və inkişaf etdirilməsi üçün bir çox yeniliklərə imza atıldı.

Heydər Əliyev Fondu bu gün Azərbaycan dövlətinin müstəqilliyinin möhkəmləndiirlməsi, insanların həyat və şəraitinin yaxşılaşdırılması, azərbaycanlı olmağımızla fəxr edilməsi istiqamətində böyük dəstək olur. Onun xarici ölkələrdə də fəaliyyəti kifayət qədərdir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ayrı-ayrı ölkələrdə məktəblər və uşaq baxçaları tikildi. Dini məbədlər inşa edilərək, ayrı-ayrı ölkələrin Azərbaycanla əlaqələrinin möhkəmlənməsi üçün böyük işlər görüldü.

Fond bu gün tək Azərbaycanda deyil, dünyanın hər yerində tanınır. Beynəlxalq təşkilatlarda Heydər Əliyev Fondu ilə əməkdaşlığa böyük önəm verilir. Fondun böyük uğur qazanmasında Fondun Prezidenti Mehriban Əliyevanın böyük xidməti var. Bu gün Azərbaycan xalqı Mehriban xanımın Heydər Əliyev ideyalarını yaşaması və onun hər bir insanın həyatına müsbət təsir etməsini geniş şəkildə görür”.

**Banuçiçək Hüseynli**



# Atatürk Mərkəzində kitab təqdimatı keçirilib



***Atatürk Mərkəzində İrəvan Müəllimlər Seminariyası adlı kitabın təqdimat mərasimi keçirilib. SİA xəbər verir ki, Cəlal Allahverdiyevin qələmə aldığı kitab İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunub.***

Tədbirdə millət vəkilləri, yazarlar çıxış edərək İrəvan xanlığının tarixindən bəhs ediblər. Kitabın müəllifi Filologiya üzrə fəlsəfə doktoru, dosent Cəlal Allahverdiyev bu kitabında qədim tarixə, zəngin mədəniyyətə və ədəbi irsə malik olan İrəvan şəhərində fəaliyyət göstərən, pedoqoji fikir tariximizdə mühüm yer tutan İrəvan Müəllimlər Seminariyasının yaranmasından,onun Azərbaycan şöbəsinin keçdiyi çətin tarixi və şərəfli yoldan bəhs edildiyini bildirib.

Müəllif erməni şovinizmi əhatəsində ana dili məktəblərimizin pedaqoji kadrlarla təmin edilməsində böyük fədakarlıq göstərmiş, adları təhsil tariximizə qızıl hərflərlə yazılmış ziyalıların fəaliyyətindən geniş söhbət açır. Kitabda İrəvan Müəllimlər Seminariyası və onun xələfi olan İrəvan Türk Pedoqoji Məktəbinin fəaliyyəti, təşəkkül və inkişaf yolları, üzləşdiyi problemlər kompleks şəkildə araşdırmış görkəmli məzunlarının elm, təhsil, mədəniyyət, dövlət quruculuğu sahələrindəki faliyyətləri ilə bağlı məlumat verilmişdir.

**Kəmalə Təyyarqızı**

# MEDİA 16 qəzetə maliyyə yardımı ayırır



Azərbaycan Medianın İnkişafı Agentliyi çap mediası subyektlərinə dəstək layihəsi çərçivəsində 2022-ci ilin ikinci yarısı üçün elan edilmiş müsabiqənin nəticələrini açıqlayıb. SİA nəticələri təqdim edir.

Qeyd edək ki, layihə çərçivəsində həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 5 000 manat, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə isə aylıq 15 000 manat məbləğində maliyyə yardımı göstərilir.

**ÇAP MEDİASI**
SUBYEKTLƏRİ
2022-Cİ İLİN 2-Cİ YARIMİLLİYİ

| ÇAP MEDİASI SUBYEKTLƏRİNİN ADLARI | MALİYYƏLƏŞDİRİLƏN NÖMRƏLƏRİN SAYI |
| --- | --- |
| “525-ci qəzet” | həftədə 5 nömrə |
| “Şərq” qəzeti | həftədə 5 nömrə |
| “Səs” qəzeti | həftədə 5 nömrə |
| “Bakı-Xəbər” qəzeti | həftədə 5 nömrə |
| “Yeni Müsavat” qəzeti | həftədə 5 nömrə |
| “Yeni Azərbaycan” qəzeti | həftədə 5 nömrə |
| “Xalq Cəbhəsi” qəzeti | həftədə 1 nömrə |
| “Azernews” qəzeti | həftədə 1 nömrə |
| “Novoye Vremya” qəzeti | həftədə 1 nömrə |
| “Həftə içi” qəzeti | həftədə 1 nömrə |
| “Hürriyyət” qəzeti | həftədə 1 nömrə |
| “Ədalət” qəzeti | həftədə 1 nömrə |
| “Türküstan” qəzeti | həftədə 1 nömrə |
| “Olaylar” qəzeti | həftədə 1 nömrə |
| “Nedelya” qəzeti | həftədə 1 nömrə |
| “Unikal” qəzeti | həftədə 1 nömrə |

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Sürücü-sərnişin münasibəti necə olmalıdır?

***Şəxsi sürücü və ya ictimai nəqliyyat sürücüsü kimi işləmək istəyirsinizsə diqqətli olmalısınız. Bu tip işin tələb etdiyi tək şey yaxşı sürücü olmaq deyil. Yaxşı sürücü avtomobili məharətlə idarə etməklə yanaşı, başqa xüsusiyyətlərə də malik olmalıdır. Sakit olmalı, aqressiv hərəkətlərlə avtomobildə olan insanları təhlükəyə atmamalı və narahat etməməlidir. Heç vaxt unudulmamalıdır ki, nəqliyyatda olan insanların təhlükəsiz və rahat səyahəti üçün onlar məsuliyyət daşıyırlar. Güclü reflekslərə malik olmalı və gözlənilməz vəziyyətlərdə düzgün qərar qəbul edib onu dərhal həyata keçirməyi bacarmalıdırlar.***




Şəxsi sürücü təhsili almaq insanın bu sahədə iş tapmaq şansına təsir edir, çünki alınan sertifikat işəgötürməyə müsbət təsir göstərir. Bu həm də insanın özünü inkişaf etdirməsinə, öz peşəsində daha yaxşı olmasına önəm verdiyini göstərir.

Şəxsi sürücü olmaq asan peşə deyil. İnsandan standart iş vaxtından kənarda işləməyi, özünü həmişə nəzakətli və gülərüzlü aparmağı, tıxacda sakit olmağı, səhv hərəkətlər etməməyi, daim diqqətli və sayıq olmağı tələb edir. İngilis dilini bilmək şəxsi sürücü kimi iş tapmaq şansını da artırır.

Yaxşı bir sürücü olmaq üçün məsləhətlər:

Təhlükəsizlik kəmərlərini bağlamağı unutmayan
Piyadalara yol verən
Güzgülərini yoxlayan
Siqnallardan istifadə edən
Yol nişanlarını yaxşı oxuyan və tətbiq edən
Telefona deyil, yola hakim olan
Sürət həddinə əməl edir

Yol qaydalarını bilmək də yaxşı sürücü olmağın şərtlərindəndir. Şəxsi sürücüsü işləmək istəyən şəxs nəqliyyat vasitəsində olan kişi və qadın sərnişinlərlə necə davranmalı, qapını necə açmağı bilməlidir.

Şəxsi sürücünün olması lazım olan xüsusiyyətlərdən biri də onun həmişə təmiz və baxımlı olmasıdır. O, həm də təmkinli olmalıdır, çünki o, işəgötürəndən və ya avtomobildəki digər insanların başqa heç kimin eşitməsini istəmədiyi söhbətlərini eşitməli ola bilər. İşəgötürənlər bəzən sürücülərini bununla bağlı sınaqdan keçirirlər. Etibarlılıq bu biznes üçün son dərəcə vacib meyardır.

Şəxsi sürücü idarə etdiyi nəqliyyat vasitəsinə texniki qulluq və texniki baxışdan da məsuldur. O, həmçinin ilk yardımın əsas prinsiplərini bilməlidir.

Avtobus idarə etmək səlahiyyəti olan şəxslərə avtobus sürücüsü deyilir. Onlar dövlət və ya özəl qurumlara məxsus çoxlu sayda sərnişin daşıya bilən avtobusları idarə edən insanlardır.

Avtobus sürücüsü şəhərdaxili və ya beynəlxalq avtobuslarla səyahət edən insanları daşıyan şəxsdir. Sərnişinlərin və onların əşyalarının təhlükəsiz şəkildə təyinat yerinə çatmasını təmin etmək üçün məsuliyyət daşıyır.

Avtobus sürücülərinin əsas vəzifəsi sərnişinlərin təhlükəsiz gediş-gəlişini təmin etməkdir. Bu səbəbdən də avtobus sürücüsü son dərəcə diqqətli olmalı və üzərinə düşən vəzifələri tam yerinə yetirməlidir.

İnsan üçün 8 saat yatmaq vacib olsa da, avtobus sürücüləri cəmi 4-5 saat yata bilirlər. Bu da onların əsəb sisteminin hansı vəziyyətdə ola biləcəyini göstərir.

Biz tez-tez sürücü-sərnişin və ya avtobus sürücüsü ilə digər nəqliyyat vasitələrinin sürücüləri arasında münaqişələrin şahidi oluruq. Bu cür vəziyyətlərdə vətəndaş dərhal avtobus sürücüsünü qınaq obyektinə çevirir. Lakin günahı yalnız sürücüdə axtarmaq olmaz.

Belə münaqişələrin səbəbi kimi sürücünün avtobusu gec sürməsi, dayanacaqdan kənarda saxlamaması, sərnişinlə kobud rəftarı, avtobusa çox adam mindirməsi kimi faktorlar əsas gətirilir.

Avtobus sürücülərindən fərqli olaraq, şəxsi avtomobilindən gün ərzində bir neçə dəfə istifadə edənlər belə yolda gərginlik yaşayırlar. Bu baxımdan gününün çox hissəsini sükan arxasında keçirən avtobus sürücülərinin birmənalı qarşılanmayan davranışları başadüşüləndir.

Ötən gün Sumqayıt şəhərində sərnişinlə sürücü arasında baş verən mübahisə baş verib. Sürücü arasında baş verən mübahisə zamanı sürücü sərnişini itələyib. Bu zaman qadın avtobusdan yerə yıxılıb. Yalnız bu deyil. Bu kimi hallar olduqca geniş vüsət alıb.

Bəs, sürücü-sərnişin münasibəti necə olmalıdır? Sürücü psixologiyası necədir? Çətin şəraitdə çalışan sürücülər üçün nələr edilməlidir? SİA mövzu ilə bağlı araşdırma apararaq ekspert və psixoloqların fikirlərini öyrənib.

**Nəqliyyat eksperti Elməddin Muradlı:** "Sürücü-sərnişin münasibətləri ilə bağlı hər hansı bir qayda mövcud deyil. Yəni, elə bir kitab, elə bir qanun yazılmayıb ki, sürücü sərnişinə can, sərnişin də ona bir xoş söz deməlidir. Belə qayda yoxdur. Sadəcə olaraq ictimai münasibətlərə aid yazılmamış qayda var.





Belə bir şey ola bilməz ki, kimsə dursun, başlasın avtobusda uca səslə danışmağa. Təbii ki, bu mədəniyyətsizlikdir, sürücünün üstünə qışqırmağa, onu təhqir etməyə, çanta ilə vurmaq nə dərəcədə düzgün ola bilər? Təbii ki, buna normal yanaşmaq olmaz. Amma bunları durub kiməsə, 60 yaşında bir insana yenidən danışmağa ehtiyac yoxdur. O 60 yaşında insan özü bunu başa düşməlidir ki, bu belə düzgün deyil. Yəni, insanlar cəmiyyətdə, ictimai nəqliyyatda özünü aparmağı bacarmalıdır. Əgər bunu bacarmırsa, deməli o tam yetişməmiş, formalaşmamış bir insandır.

Ümumən sürücü sərnişin münasibətləri əvvəlki illərə nisbətdə xeyli yaxşılaşıb. Yəni, əvvəllər sürücülər daha aqressiv, daha kobud idi, təhqir edirdilər, qaydaları pozurdular. Yəni, ağlagəlməz hərəkətlər edirdilər və tez-tez də qəzalar baş verirdi. Amma son vaxtlar görürük ki, əvvəl sürücülər bunu edirdilərsə, indi sərnişinlər sürücülərə qarşı bunu edir. Dəfələrlə olub. Bəs, burada nə baş verir? Əslində mahiyyət etibarilə baxsaq ya sərnişin minib qapının ağzında dayanır, sürücü xəbərdarlıq edir ki, "ortaya keç", sərnişin aqressiv cavab verir ki, "keçmirəm", ya da onun başqa səbəbləri var.

Səbəblərdən də biri odur ki, bəzi sərnişinlər özlərinin rahatlığını düşünərək, harada rahatdırsa, orada avtobusa minmək və ya avtobusdan düşməyə çalışırlar. Sanki mütləq onların evinin qapısında avtobus dayanmalı, onu götürməli, düşəndə də orada düşürməlidir. Bu düzgün deyil. İnsanlar başa düşməlidirlər ki, bu belə olmaz. Yəni, harda gəldi avtobusu saxlatmaq, harada gəldi minmək, harada gəldi düşmək qanunsuz hərəkətdir. Avtobus sürücüsü buna görə 100 manat cərimə oluna bilər. Sən 30 qəpik gediş haqqı ödəyirsən, amma kimdənsə tələb edirsən ki,100 manatlıq qayda poz.

Biz danışırıq ki, ictimai nəqliyyat düzəlsin. Bunlar da deyir yox düzəlməsin. Avtobus sürücüləri avtobusu kənarda saxlamağa borclu deyillər. Dayanacaqdan kənarda saxlamaq onlar üçün qayda pozuntusudur, qadağandır. Bəzi insanlar düşünür ki, yox harada gəldi saxlaya bilər. Təsəvvür edin ki, sərnişin avtobusa minmək üçün avtobusu harada gəldi saxlatdırmaq istəyir. Amma avtobusa minəndən sonra başqa bir sərnişin avtobusa əl edib saxlatdıranda onun acığına gəlir. Sürücüyə irad tutmağa başlayır ki, "nədir dəqiqə başı saxlayırsan?", "niyə dayanırsan?" "dayanacaqda dayan". Hansı ki, özü dayanacaqdan kənarda minir.

İnsanlar bunu başa düşməli, dərk etməlidirlər ki, əgər ictimai nəqliyyatı qaydaya salmaq istəyiriksə dəyişməliyik. Dəyişmək üçün də başqalarını gözləmək lazım deyil, birinci özümüz dəyişməliyik".

**Etika Akademiyasının rəhbəri Günel İbrahim:** "Stress və daxili mədəniyyət əskikliyi aqressiv hərəkətlər sövq edir. Dəyərlərə hər an, hər sahədə, hər peşədə sadiq qalmaq önəmlidir. Birgə yaşamaq mədəniyyətimiz olmasa sağlıqlı və hüzurlu həyatı tamamilə unutmalı olacayıq. İctimai nəqliyyatda olan mənfi hadisələr kimi. Nəqliyyatdan dayanacaq olan yerlərdən minmək və enmək olar. Başqa tələblət təhlükəlisizlik amilini aşağı salır.

Sürücü siqaret, spirtli içki və digər enerGetiklərdən istifadəsi qəbul edilməzdir. İlk olaraq enən sərnişinə yol verilir, daha sonra nəqliyyata daxil olanların sırasıdır. Nəqliyyata daxil olan zaman irəliləmək gərəklidir ki, sonradan minən sərnişinə yer olsun. İri çanta daşıyıcısı nəqliyyatda başqalarına maneçilik törətməmək üçün çiynindən endirməlidir. Oturacaqlar ilk öncə pensionerler, uşaqlı qadınlar, fiziki məhdudiyyəti olanlar üçün nəzərdə tutulmuşdur. Başqasına diqqətlə baxmaq, bərkdən telefonla danışmaq, səsli oyunlara və videolara baxmaq olmaz. Xoş söz, xoş münasibət bütün səfəri təhlükəsiz edər".





**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Son vaxtlar cəmiyyətdə xüsusi aqressiya müşahidə olunur. Obrazlı desək, küçədə-bazarda qarşılaşdığımız adamların çoxu adamı görəndə üz-gözünü turşudur. Bəzən ehtiyat edirsən ki, bu dəqiqə səni vuracaq.

Hesab edirəm ki, mütəxəssislər bu barədə düşünməli, çıxış yollarını göstərməlidirlər. Çünki bu qəzəb, bu kin insanların şəxsi davranışına təsir göstərir, yersiz söz-söhbətin, dava-dalaşın meydana çıxmasına səbəb olur

Sumqayıtda avtobusda baş verən məlum insident də bu prizmadan qiymətləndirilmədir. Bu hadisədə kimin günahkar olduğunu bəribaşdan söyləmək çətindir. Amma istənilən halda bu davranışı yaşlı-başlı adamlara yaraşdırmadım. Uşaqlarımız, gənclərimiz bu insanlardan nə öyrənə, necə nümunə götürə bilərlər? Anlaya bilmirəm ki, bu adamlar nəyi bölə bilmirlər? Biz niyə ictimai yerdə hökm etməyə, öz sözümüzü keçirməyə cəhd edirik? Biz niyə bu qədər hikkəliyik? Məncə, Azərbaycanda bir çox peşə sahiblərinin, o cümlədən, avtobus sürücülərinin psixoloji testən keçməsinə ehtiyac var.

Ancaq bu o demək deyil ki, məlum insidentin tək günahkarı həmin sürücüdür. Məncə, hər iki tərəfin məsuliyyəti bərabərdir. Biz nə qədər ki, problemlərimizi danışmaqla deyil, dalaşmaqla həll edirik, belə hadisələrin çox şahidi olacağıq".

**Psixoloq Zeynəb Eyyubova:** "Ümumiyyətlə istənilən sahədə işə götürülərkən artıq müasir dövrün tələblərinə uyğun olaraq davranış etiket qaydaları, özünün insanlarla münasibəti araşdırılmalıdır və bu haqda hətta təlimlər keçirilməlidir.

Davranışında və nevroloji problemi olan, əsəbləri ilə bağlı gərginlik yaşayan insanlar bu tip sahələrdə işləməli deyillər. Çünki, bu sahə ağır sahədir və günün müəyyən hissəsi işdə olurlar və gərginlik olur. Ona görə də əsəblərində problemi olan insanları bu sahədən uzaqlaşdırmaq lazımdır və tənzimləmələr, işə götürən şirkətlər bunun üçün təlimlər qoymalı, psixoloqları dəvət etməli, onlarla mütəmadi söhbət aparıb hər hansı bir problemləri olanda həll etmək lazımdır. Eynən sərnişinlər də.



Bildiyiniz kimi insanların aqressiyasının səbəbi xoşbəxt olmamaları, daim sinirlərinin oyaq olmaqlarıdır. Siniri oyaq olan, problemli olan insanlar istər-istəməz qarşı tərəfə də aqressiya ilə davranacaqlar. Bu avtobusda da, marketdə də, məktəbdə də, hər hansı bir iş sahəsində də ola bilər. Konkret hansısa sahəyə xitab olunmur. İstənilən sahədə əsəbləri gərgin olan, özünü xoşbəxt hiss etməyən, özü ilə rahat münasibət qura bilməyən insan eyni zamanda başqaları ilə də bu problemi yaşayacaq. Qarşısını almağın ən mükəmməl yolu onları işə götürməzdən əvvəl müxtəlif testlərdən keçirməliyik".

***Ayşən Vəli***



# "Müharibə başa çatmasa, böhran daha da dərinləşəcək"



"Rusiya ilə Ukrayna arasında baş verən hərbi münaqişə son günlər daha da alovlanır. Hərbi qarşıdurmanın miqyası daha da genişlənir. Baş verənlər deməyə əsas verir ki, münaqişə hələ uzun müddət davam edəcək". Bu sözləri SİA-ya açıqlamasında Trend BİA-nın Baş direktor müavini, siyasi ekspert Sahil Kərimli bildirib.

Onun sözlərinə görə, tərəflərin danışıqlar masasına oturmaması, hərbi əməliyyatların şiddətlənməsi müharibənin tezliklə başa çatmasına olan ümidləri heçə endirir: "Məlumdur ki, Rusiya ilə müqayisədə Ukraynanın hərbi potensialı xeyli azdır. Amma Qərb ölkələri Ukraynanı silahlandırmada davam edir, böyük məbləğlərdə maddi yardımlar göstərir. Bu da şübhəsiz ki, döyüş əməliyyatlarının uzanmasına təkan verir. Hazırda dünyada yeni düzən formalaşır, dünya yeni qütbləşməyə doğru gedir. Olduqca ciddi və təhlükəli proseslər baş verir. Sirr deyil ki, Rusiya-Ukrayna müharibəsi iki ölkə arasında deyil, ümumilikdə Rusiya ilə Qərb arasında baş verən qarşıdurmadır. Bu da bütün dünya üçün faciəvi nəticələr deməkdir".

Sahil Kərimli fikirlərinə davam edərək həmçinin qeyd edib ki, Ukraynada infrastrukturun hər gün dağıdılması, şəhərlərin, qəsəbə və kəndlərin, yaşayış məntəqələrinin müharibənin təsiri ilə məhv edilməsi tərəflərin çoxsaylı itkilər verməsi göz önündədir: "Bundan əlavə hazırda regionda baş verən iqtisadi tənəzzül, ticarət əlaqələrinin iflic vəziyyətə düşməsi dünya üçün ciddi həyəcan siqnalı olmalıdır. Qərbin Rusiyaya geniş sanksiyalar tətbiq etməsi vəziyyəti daha da gərginləşdirir. Təbiidir ki, tətbiq edilən sanksiyalar bumeranq təsiri bağışlayacaq və Avropa ölkələri də dərin tənəzzüllə üzləşəcək. Avropanın enerji təchizatı məsələsində yaranan problemlər bunun təzahürüdür. Hazırda dünya ərzaq böhranı astanasındadır. Yaxın aylarda kütləvi ərzaq qıtlığının yaranması qaçılmaz olacaq. Əgər Rusiya-Ukrayna arasındakı müharibə tezliklə başa çatmasa, bu böhran daha da dərinləşəcək və insanlığa böyük zərbə olacaq".

***Arzu Qurbanlı***

# Erməni vandalizminin azyaşlı qurbanları



**_2020-ci il Azərbaycanın Zəfər tarixi olaraq salnamələrə yazıldı. Prezidentimizin bu tarixi qələbənin qazanılmasında nümayiş etdirdiyi qətiyyətli mövqe xalqımıza, o cümlədən hər birimizə böyük sevinc və qürur hissi yaşatdı. Bu Qələbənin qazanılmasında şanlı və qəhrəman Azərbaycan əsgər və zabitlərinin əvəzsiz rolu danılmazdır._**

Vətən müharibəsində Azərbaycan işğalçı Ermənistanı tam kapitulyasiyaya məruz qoyaraq tarixi ədaləti və ərazi bütövlüyünü təmin etdi. Qisas qiyamətə qalmadı. 30 ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarımızın işğaldan azad edilməsi, ilk növbədə, Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Biz bu Zəfəri yaşamaqla, bərabər ermənilərin törətdikləri terror aktlarını da unutmuruq. Ermənilər Azərbaycan ərazilərini işğal etməklə əhalini öz doğma torpaqlarından didərgin salır, dinc əhaliyə amansız divan tutur, sərnişin nəqliyyatlarında və mülki obyektlərdə terror aktları törədirdilər. Belə vandal aktların nəticəsində 2 mindən artıq günahsız insan həlak olmuş, çoxlu sayda insan ömürlük şikəst olmuşdur. 1989-cu il sentyabrın 16-da törədilən terror aktı zamanı Bakı-Tbilisi sərnişin avtobusu partladıldı və 30 nəfər həlak oldu və yaralandı. 1990-cı ilin fevralında Şuşa-Bakı, həmin ilin avqustunda Tbilisi-Ağdam marşrutları üzrə hərəkət edən sərnişin avtobuslarında da terror aktları törədildi. Bu partlayışlar zamanı 40-a yaxın günahsız insan qətlə yetirildi. Terror aktlarını A. Avanesyan və M.Tatevosyan törətmişdilər. 1990-cı il martın 24-də erməni terrorçuları Qazax rayonuna basqın edərək 6 nəfəri qətlə yetirmişlər. 1991-ci il mayın 30-da Dağıstanın Xasavyurd stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarının partladılması da faciəli sonluqla nəticələndi: 11 nəfər həlak oldu, 22 nəfər isə yaralandı. Terror aktlarının sayı gündən-günə çoxalırdı. Azərbaycanın hər bir yerində demək olar ki, terrorlar törədilir, insan qanına susamışların əməlləri səngimirdi. Sərnişin avtobuslarında, qatarlarda, dəniz bərəsində törədilən terrorlar nəticəsində insanlar öz həyatlarını itirirdilər. Belə ki, 1991-ci noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları Azərbaycana məxsus "Mi-8" vertolyotunu atəşə tutaraq partlatmış, nəticədə tanınmış şəxslər, dövlət xadimləri, o cümlədən Rusiya və Qazaxıstandan olan müşahidəçilər də daxil olmaqda 23 nəfər həlak olmuşdur.

## İNSANLIQ ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏR

Bu xronologiyanı qələmə aldıqca bitmir. 44 günlük Vətən müharibəsində biz ermənin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha göstərdi. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın, dünya KİV-lərinin döyüş meydanında iştirak etdiyi bir zamanda baş verirdi. Bütün olayları dəqiqliklə işıqlandıran KİV-lər Azərbaycanın haqlı mövqeyinə göz yuma bilmirdilər. Ermənistan tərəfindən həyata keçirilən terror aktları və müharibə cinayətlərinə etinasızlıq göstərilmədi. Vicdanla öz vəzifə borclarını yerinə yetirənlər Azərbaycanın təmas xəttindən uzaqda yerləşən şəhərlərini raket atəşə tutmasını, nəticədə çox sayda mülki şəxsin həyatının itirməsinin şahidinə çevrildilər. Gəncədə törədilən terror aktı daş yaddaşımıza həkk olundu. Gecə insanların evlərində yatdığı zaman raket atəşi nəticəsində dağılan yaşayış massivi və raket zərbəsindən məhv olmuş məhəllədə dağılan evlərin qalıqları hər zaman kino lenti kimi göz önündən keçir. Yatmış insanlara qarşı iyirmi birinci yüzillikdə törədilən terror insanlıq əleyhinə olan cinayətdir. Erməni silahlı bölmələrinin oktyabrın 17-də gecə saatlarında Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə hər bir azərbaycanlının xatirindədir. Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşayarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu.







Beş il əvvəl 2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən daha bir çirkin siyasətin nümunəsi oldu. Nəticədə, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular, digər mülki şəxs - 1965-ci il təvəllüdlü qadın Quliyeva Səlminaz ağır yaralandı və mülki obyektlər dağıdıldı. Təbii ki, mülki şəxslərin münaqişələrdə hədəfə alınması qəbuledilməzdir. 2 yaşlı azərbaycanlı Zəhra Quliyevanın cəbhə xəttində Ermənistanın işğalçı qüvvələri tərəfindən qətlə yetirilməsi dözülməz idi. Bu, bir daha Ermənistan ordusu tərəfindən Azərbaycan ərazilərində törədilən təcavüz və təxribat faktlarını, onların iyrənc siyasətini ortaya qoymuş oldu. Bu Ermənistan silahlı qüvvələri tərəfindən törədilən növbəti vandalizm aktıdır. Bu hadisənin təmas xəttinin beş kilometrliyində baş verdiyi, qanlı cinayətin müharibə qaydalarının pozulması ilə törədilən mülki əhalinin qətli aktı olduğu, hədəfə alınan Alxanlı kəndinin təmas xəttindəki hərbi mövqelərdən uzaq məsafədə yerləşməsinin düşmən qüvvələrinin mülki obyekti məqsədyönlü şəkildə seçməsi sübut edildi. Bütün bunlar dünya ictimaiyyətinə çatdırıldı və dünyanın gözü qarşısında ermənilərin təcavüzkar siyasəti bir daha ifşa edildi.

## BEYNƏLXALQ TƏŞKİLATLAR TƏRƏFİNDƏN QƏBUL EDİLƏN HÜQUQ NORMALARI POZULDU

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilər Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub.

Bütün bunlara baxmayaraq Azərbaycan xalqı isə istənilən vəziyyətdə əyilməz olduğunu göstərərək, vətən sevgisini hər şeydən uca tutdu. Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq olaraq birləşdi və Zəfər qazandı. 30 illik bir həsrətə son qoyuldu və tarixi torpaqlarımız işğaldan azad olundu. Xalqımız üçün geniş yollar açıldı. 44 günlük müharibədə qazanılan şanlı qələbə sayəsində regionda yeni reallıqlar yaranıb. Hazırda qarşıda dayanan əsas vəzifəmiz azad olunmuş ərazilərimizdə quruculuq-bərpa işlərinin həyata keçirilməsidir. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş rayonlara mütəmadi səfərləri xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Məqsəd yalnız ölkə səviyyəsində deyil, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir.

**_Zümrüd BAYRAMOVA_**

# Sizə onlardan danışım...

***Səhər saat 6-dır. Evi saatın zəng səsi bürüyür. Bu səs "qalx",- deyir. "Qalxmağın vaxtıdır",- deyir. Bu səs tək onu deyil, ailə üzvlərinin hər birini yuxudan oyadır. Yox, onlar narahat deyillər. Artıq bu səsə alışıblar. Bilirlər ki, evlərindən çətin və şərəfli bir peşə ardınca gedən var və o, bu saatda qalxmalı, hazırlaşmalı, çıxmalıdır.***

Oyanıram bu səsə, hər gün olduğu kimi. Bu gün də iş günlərindən biridir, lakin həmişəki adi iş günü deyil. "Onların bayramıdır",- deyirəm öz-özümə... Düşünürəm ki, bu zəng səsi indi onların yaşadığı bütün evlərdə çalınır. Saat 6... Sübh yuxusu şirin olar, deyərlər. Yuxunun bu şirin çağı onların hər biri oyanıb artıq, ayağa qalxıblar. İşə getmək üçün hazırlaşırlar. Ən uzağı saat 7-də evdən çıxacaqlar. Bəlkə də bir az da gec çıxmaq olar. Bəli, olar. Lakin onları evlərindən tez çıxaran böyük bir məsuliyyət hissidir. İşə yubanmağın mümkün olmadığı halın artıq beyinlərə sirayətidir. Bir də onlara həvalə olunan ölkənin asayişi və milyonlarla insanın taleyidir. Elə bütün bunlara görə də onlara məxsus gündə onlardan-polislərdən danışmaq istəyirəm...



Hamıdan əvvəl evdən çıxıb, hamıdan sonra evə gələnlərdən, gecənin yarısında olsa belə, hər bir çağırışa ildırım kimi sıçrayanlardan, hər addımda qarşılaşdığımız peşə sahiblərindən söhbət açmaq istəyirəm. Gecəli-gündüzlü aşayişimizin keşiyində əzmlə dayanan, vəzifə borcunu yuxusundan, istirahətindən önəmli hesab edən, biz yuxudaykən bəzən saatlarla oyaq qalan polislərdən, onların məsuliyyətli və çətin peşələrinə sevgilərindən söhbət açmaq istəyirəm...

Səhər açılır... İndi artıq bir neçə saatdır ki, onlar iş başındadırlar. Gecə növbələri artıq təhvil verilmiş, səhər işə tələsən polislər iş başına keçmişlər. İndi onlar hansısa bir əməliyyatın üzərində işləyirlər. Hansısa bir hadisənin üzərində təhqiqat aparır, anlizlər edirlər. Hansısa bir cinayət hadisəsinin axtarışındadırlar. Gecə səhərədək çalışıb, gözlərini yummayıb, ayaq üstündə qalıblar. Lakin səhər yeni iş günü həmin hadisələr haqqında hesabat vermək üçün məlumatlıdırlar.

Budur, artıq bizlər də evdən çıxırıq, hər birimiz öz işimizin ardınca. Küçədə, metroda, inzibati binaların qarşısında polislərlə qarşılaşırıq. Tanımadığımız ünvanları hər an soruşduğumuz, xoş üzlə, ətraflı cavab aldığımız polislərlə. Onlar artıq saatlardır ki, iş başındadırlar. Yolda qarşılaşırıq, yaşlı bir insanın qolundan tutub yolu keçməsinə köməklik göstərirlər. Kiminsə sualına cavab verirlər. Azyaşlı bir uşağa kömək edirlər. Parkda, küçədə hər kəsin arasındadır onlar. Asayişi qoruyurlar. Ayaq üstədirlər, gəzişirlər, ətrafa göz gəzdirirlər, sanki bu nəzərlər ətrafa bir sakitlik bəxş edir.

Geyindikləri uniforma səliqəsi, özünəməxsusluğu ilə diqqəti cəlb edir. Fərqliliyi ilə Azərbaycan polisinin obrazını formalaşdırır təxəyyüllərdə. Bu geyimlə sovet dövründəki Azərbaycan polisinin geyimi müqayisəolunmayacaq dərəcədədir. Bu geyimlər müstəqil ölkəmizə məxsusluğu ilə adama böyük qürur bəxş edir. Müstəqillik illərində nəinki onların geyimləri, polislərin çalışdıqları inzibati binalar da tamamilə müasirləşdirilib. Ən ucqar rayonlarda, kəndlərdə belə polis şöbələri, məntəqələri yeniləşdirilib. Onların təhsili dövlətimizin diqqətində saxlanılan vacib məsələlərdən biri kimi ötən illərdə bu sahə üzrə ali təhsil ocaqlarının yenidən qurulması, müasir texizatı ilə nəticələnib.

Bütün bu düşüncələr Azərbaycan polisinin tarixinə də bir nəzər salınmasını tələb edir. 104 il əvvəl yaradılan Daxili İşlər Nazirliyi bu birəsrlik dövrün 70 ilini sovet imperiyasının buxovları çərçivəsində fəaliyyət göstərsə də, öz coğrafiyamıza, mentalitetimizə uyğun xüsusiyyətlərini qoruyub saxlayıb. Sovet imperiyasının əlimizdən almaq istədiyi, lakin nail ola bilmədiyi bir çox məqamlar kimi, polisimiz də bu xalqa, Vətənə sadiqlik nümunəsinə çevrilib.

Azərbaycan polisi ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə hakimiyyətdə olduğu hər iki dövrdə təməlini qoyduğu müasir inkişaf strategiyası ilə həm 1970-ci illərdə, həm də müstəqilliyimizin ötən 30 ilində inkişaf dövrünü yaşayıb, artıq bu gün güclü bir orqana çevrilib. Sağlam cəmiyyətin formalaşmasında hüququn, qanunun və qanunun keşiyində duran insanların olmasının vacibliyini bilən ulu öndərin ölkədə və eləcə də xaricdə təhsil alan savadlı milli hüquqşünas kadrların hazırlığına diqqət artırması sonrakı illərdə öz bəhrəsini verdi. 1973-cü ildə Bakıda şəxsi prinsipiallığı və əzmkarlığı ilə İttifaq hökumətinə təsir edərək Naxçıvanski adına hərbi liseyin yaradılmasına nail olan Heydər Əliyev bu sahədə, demək olar ki, ən böyük fundamental təhsil kompleksinin əsasını qoydu. 1921-ci ilin sentyabrın 28-də Bakı Milis Məktəbi kimi təsis edilən, 1957-ci il fevralın 23-də Bakı Xüsusi Orta Milis Məktəbi kimi fəaliyyətini davam etdirən bu təhsil müessisəsinin bazasında 1992-ci il mayın 23-də Azərbaycan Polis Akademiyası yaradıldı. Bu ali təhsil müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi və yüksək peşəkar milli polis kadrlarının hazırlanması istiqamətində əldə edilən nailiyyətlər ümummilli lider Heydər Əliyevin Azərbaycan polisinin inkişafı naminə atdığı ən böyük addımlardan biri idi.

Dövlətimizin başçısı cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi ötən 18 ildə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi istiqamətində hüquqi-demokratik islahatların bazası daha da genişləndirildi və zənginləşdirildi. Bu, hüquq- mühafizə sistemində, habelə polis orqanlarında çalışanların qarşısına yeni və mühüm vəzifələr qoymaqla yanaşı, onların məsuliyyətini daha da artırır və bu şərəfli peşədə çalışmaq üçün hər bir polis əməkdaşına stimul verir.

Polisin inkişaf mərhələləri bir-bir gözlər önündən keçdikcə onların həm Birinci, həm də İkinci Vətən müharibələrindəki, pandemiya dövründəki fəaliyyətlərini də xatırladır. Torpaqlarımızın azad olunmasında Daxili İşlər Orqanlarının əməkdaşlarının misilsiz əməyi olmuşdur. Pandemiya dövründə gözəgörünməz düşmənlə mübarizədə isə polisin zəhməti ölçüyəgəlməzdir.

Bütün dövrlərdə, bütün hadisələrdə polisin əməyi, zəhməti var. Onlar cəmiyyətimizin sakitliyi, dinc yaşayışımız, əmin-amanlığımızdır. İstənilən bir hadisədə polis bizim ədalət carçımızdır. Biz onların araşdırmalarında, təhqiqatlarında haqlı və ya haqsız tərəflər olduğumuzu bir daha dərk edirik.

Beləliklə günlər həftələrə, həftələr aylara, aylarsa illərə öz yerini təhvil verir. Qış olur, hava soyuyur, payız-yaz yağışları yağır, yay gəlir, havalar istinir. Bütün hava şəraitində polislər yenə də öz iş qaydaları, prinsipləri ilə çalışır, vəzifə borclarını ləyaqətlə yerinə yetirirlər. Onlar daim tələsirlər. Heç bir hava şəraiti, digər başqa işlər bu tələsmələrin qarşısını ala bilmir. Çünki onlar işlərindəki məsuliyyətə alışıblar. Bu səbəbdən də tələsməli, hər kəsdən əvvəl oyanmalıdırlar. Bizlər isə işə gedəndə, şəhərə çıxanda onları saatlar öncə iş başında görməyə alışmışıq...

Bir səhərin axşamı yaxınlaşır... Saatın əqrəbləri səhərki 6-nı axşam 6-ya çatdırır. Saat 7, 8, 9 olur... Bu peşə sahiblərini evlərdə xüsusi bir saatda gözləmək mənasızdır. Çünki onların evə gəlmə saatları bəlli deyil. Polislərdir onlar. Bizlər şam yeməyində də, istirahət saatlarında da onları görməyə bilirik. Çünki onlar hadisələrlə işləyirlər. Hadisələrin isə vaxtı, zamanı bilinmir, hadisələr hər an baş verir. Polislər isə o hadisələrin ardınca iş vaxtından sonra da iş başındadırlar. Ona görə də polis anaları, bacıları, övladları onların evə qayıtma saatlarını müəyyən edə bilmirlər. Onlar bilirlər ki, hadisə yoxdursa, ataları, qardaşları, övladları evə vaxtında gələcəklər. Hadisə varsa, onlar gecikirlər...

Polis həyatı, polis ömrü, polis peşəsi... Ötən günlərin hadisələri, cinayətləri formalaşdırır bu həyatı... Hər iş günü ötdükcə ömür yaradır. Hər məsuliyyətli iş günü bu peşənin sirlərindən söhbət açır, bir polisin yetişməsinə səbəb olur.

Beləliklə illər sıravi bir polis əməkdaşını vəzifələrdən vəzifələrə, rütbələrdən rütbələrə yüksəldir. Bu çətin və şərəfli peşənin sahibləri Vətənə, xalqa xidmət etmək missiyası ilə bir ömür yaşayırlar. Onların həyat yoldaşları da, övladları da bu peşənin həm çətinliyinin, həm də məsuliyyətinin bələdçilərinə çevrilirlər. Bir ailə polis ömrünü, polis həyatını yaşayır...

Bəli, yaşayır, yaşadıqca da qürur duyur: həyat yoldaşı, qardaşı, bacısı, övladı ilə. Çünki onlar polisdirlər. Həmişə qürur duyduğumuz, fəxr etdiyimiz peşənin sahibləridirlər. Bu yazıda onlardan-polislərdən söhbət açmaqla Polis Günü münasibətilə ölkəmizdə fəaliyyət göstərən polislərin zəhmətindən, peşələrinin ağır və şərəfindən danışmaq, onların hər birini bayramları münasibətilə təbrik etmək istədim.

Bayramınız mübarək, əziz polislər! Sizinlə qürur duyuruq. Vətənimizin, cəmiyyətimizin həyatımızın sakitliyini, dincliyini, əmin-amanlığını qoruduğunuz üçün var olun. Bizsə hər an sizdən danışaq: Qürurla, fəxarətlə...

***Mətanət MƏMMƏDOVA***

## "Zərurət yaransa, düşmənin başını növbəti dəfə əzəcəyik"

***"İlk öncə qeyd edim ki, erməninin bundan sonra nə deyəcəyi heç nəyi dəyişməz, dəyişə bilməz. Çünki ortada sənəd var. Daha dəqiqi, 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli bəyanat var". Bunu "Səs" qəzetinə açıqlamasında millət vəkili Elşən Musayev deyib.***



Onun sözlərinə görə, həmin bəyanatın şərtlərində isə açıq göstərilib ki, 3 ildən çox olmayan müddətdə alternativ dəhliz açılan kimi Laçın rayonunun mərkəzi və bir neçə kənd Azərbaycanın tam nəzarətinə keçəcək: "Yəni, bu, rəsmi sənəddir. Sənədin altına isə Paşinyan da şəxsən imza atıb. İnsan öz imzasından necə imtina edə, verdiyi sözü dana bilər? Lap dandı, ya da verdiyi sözə əməl etmək istəmədi. Sonra bunun arxasında dura bilərmi? Dura bilməz. Ermənistan öz üzərinə götürdüyü öhdəliklərə könülü əməl etməsə, onu buna məcbur edəcəyik. Özbaşına deyillər ki. Hər şeyin üsul-qaydası var, ortada sənəd var, razılaşma var. Belə məqamda erməni hay-küy salmaqdan savayı heç nə edə bilməz. Cığallığı bunların köhnə peşəsidir. Yəqin vaxt uzatmağa çalışırlar. Amma alınmayacaq. Laçının mərkəzi çox tezliklə Azərbaycan tərəfinin tam nəzarətinə keçəcək. Buna kimsənin şübhəsi olmasın. Üstəlik, erməni bir məqamı da unutmasın ki, "Dəmir yumruq" yerindədir və ehtiyac, zərurət yaransa düşmənin başını növbəti dəfə əzəcək".

***Gülyana***

## "NATO-nun fəaliyyətlərindən narahatıq"

***Sergey Lavrov "NATO-nun sərhədlərimizin yaxınlığında, xüsusən də Baltikyanı ölkələr və Polşadakı fəaliyyətindən ciddi şəkildə narahatıq" deyib. "NATO-nun sərhədlərimizin yaxınlığında, xüsusən də Baltikyanı ölkələr və Polşadakı fəaliyyətindən ciddi şəkildə narahatıq".***



SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Rusiya Federasiyası ilə Belarus arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Belarusun paytaxtı Minskə səfəri zamanı bu ölkənin xarici işlər naziri Vladimir Makey ilə görüşündən sonra keçirilən birgə mətbuat konfransında deyib.

"Biz NATO-nun sərhədlərimizin yaxınlığında, xüsusən də Baltikyanı ölkələr və Polşada fəaliyyətindən ciddi narahatıq. Bizim ümumi fikrimiz ondan ibarətdir ki, bu cür hərəkətlər açıq şəkildə qarşıdurma xarakteri daşıyır və Avropa təhlükəsizlik məkanında daha çox gərginliyə və parçalanmaya gətirib çıxaracaq", -deyə Lavrov qeyd edib.

Avropada Təhlükəsizlik Əməkdaşlıq Təşkilatının (ATƏT) 1990-cı illərin sonu və 2010-cu ildə elan etdiyi "təhlükəsizliyin bölünməzliyi prinsipini" məhv etdiyini deyən S.Lavrov "Qərb bununla da "heç bir dövlət özünün təhlükəsizliyini başqalarını təhlükə altına almaq hesabına gücləndirməməlidir" prinsipini məhv etdi" deyib.

# Kəsilən qurbanlar hara gedir?



*AİI-nin müəllimi, din xadimi İbrahim Quliyevin SİA-ya verdiyi müsahibəni təqdim edirik:*

***-Qurban bayramının mənəvi tərəfi dedikdə nə nəzərdə tutulur?***

- Qurban bayramının mənəvi amilləri terminlərin içərisində gizlənib. Qurban sözünün hərfi mənası "Allaha yaxınlıq" deməkdir. Bundan əlavə, Qurbanın əlavə 5-6 sinonim sözləri var. İnsan qurban kəsməklə öz əməl dəftərində olan günahları yoxa çıxarmış, Rəbbinə tərəf gedən yolu aydınlaşdırmış olur.

***- Qurani-Kərimdə Qurban bayramı ilə bağlı ayə var?***

- Ümumiyyətlə, Qurani-Kərimdə qurbanlıqla əlaqədar xüsusi olaraq Həcc surəsi var. Bundan başqa Bəqərə və Ali-İmran surəsində qurbanlıqla əlaqədar bir neçə məsələ var. Qurani-Kərimə görə qurbanlığın tarixi ilk insanla əlaqədardır.

***- Qurbanlıqda niyə qurban kəsilir? Bunun bir elmi əsası varmı?***

- Bunun elmi əsasını bir neçə elmi istiqamətdə təhlil etmək olar. Birincisi tarixşünaslıq nöqteyi-nəzərdən ki, insanların müxtəlif dövrlərdə özünəməxsus qurbanlıq ayinləri var idi. İlin müəyyən günlərində həmin ayini icra etmək üçün bəzən xanımlar arasından biri seçilərək qurban kəsilirdi.

Bəzi toplumların qurbangahı var idi ki, burada da ilin müəyyən günlərində qurban kəsilirdi. Bu qurbanlar bütlərin önündə kəsilirdi. Ərəblər ildə bir dəfə "Bəvanə" adlanan yerdə qurban kəsirdilər. İslam dini gəlməklə insanların təfəkküründə olan bu mənasız ayin aradan götürülmüş oldu. Yəni, insanın insan tərəfindən və ya insanın bütlər qarşısında qurban kəsilməsini ləğv etdi. İslam insanların təfəkkürünü təmizlədi.

İkinci elmi əsası odur ki, insanlar qurban kəsməklə bir-birilər arasında sosioloji nöqteyi- nəzərdən bağlılıq yaratdılar. Üçüncü əsas da odur ki, qurbanın nə əti, nə də qanı Allaha çatmaz. Allaha yetişən yalnız sizin təqvanızdır. Təqva insanın imanının əsas göstəricisidir. İnsan qurban kəsməklə özünü Allaha yaxınlaşdırmış olur.

***- Həcc ziyarəti zamanı kəsilən qurbanın fərqi nədir?***

- Həcc ziyarəti müstəti olan şəxslərə vacibdir. Müstəti hərfən bacarığı və imkanı olan mənasındadır. Özündə bir neçə məsələni əhatə edir. İlk öncə insan fiziki baxımdan sağlam olmalıdır. Xəstə adam həcc səfərinə çıxa bilməz, şəriət buna icazə vermir.

İkincisi zəngin olmalıdır. Zəngin o mənada ki, həcc ziyarətində olduğu müddətdə həm orada özünü, həm də qayıdıb evinə gələnə qədər ailə özünü təmin etməyə qadir olmalıdır.

Üçüncüsü yol təhlükəsizliyidir. Əgər bir insan hiss etsə ki, yolda onun üçün əmin-amanlıq yoxdur, o zaman səfərə çıxa bilməz.

Həcc ziyarətində olan adam öncədən öz işini bildiyinə görə, qurbanlığın pulunu da özü ilə aparmış olur və mütləq qurbanını kəsir. Əgər bir adam həcc ziyarətində olduğu təqdirdə qəsnən qurban kəsməzsə, onun həcci batil hesab edilir. Çünki ayinlərdən biri də minada qurbanın kəsilməyidir.



***- Ərəbistanda hər həcc mövsümündə milyonlarla qurban kəsilir. Bu qurbanlar hara gedir?***

- Orada bu işlə məşğul olan xüsusi bir nazirlik var. Bu, Həcc nazirliyidir. Buna görə Səudiyyə Ərəbistan dünyada yeganə ölkədir. Bütün ziyarətlər filan burada həyata keçirilir. Onlar öncədən hər ölkədən nə qədər adam gələcəyini bilirlər. Buna görə də qurbangahlığa heyvanlar gətirilir. Söhbət milyonlardan gedir.

İslama görə şikəst və xəstə heyvanların qurban kəsilməsinə icazə verilmir. Ona görə ora çıxarılan heyvanların hamısı öncədən yoxlanılır və onlar xüsusi qeydiyyata alınır. Daha çox insan keçi və qoyun qurbanı kəsir. Hətta camış və kəl də kəsilir. Bir də vəhşi növ heyvanları qurban kəsmək olmaz. Məsələn ceyranı qurban kəsmək olmaz. Həmçinin, quş növündən olan heyvanları da qurban kimi kəsmək olmaz. Orada qurban əllə, qiblə istiqamətində kəsilir. Bütün qaydalar düzgün edilir.

Sonradan həmin o nazirlik kəsilən heyvanları hesablayır. İl ərzində olan statistika hesablanır. Bu ətlər sosial vəziyyəti aşağı olan ölkələrə göndərilir. Daha çox Afrika ölkələrinə üstünlük verilir. 1990-cı illərin ortalarında Azərbaycana da göndərilirdi".

**Ayşən Vəli**

# "Dağıdıcı müxaliflər xalqın inamını itirmiş yalançılardır"

***Müxalifət hər zaman yersiz hərəkətlərə əl ataraq xaricdən özünə dəstək axtarmaqla məşğul olub. Çünki həmin o müxalifət təmsilçiləri çox gözəl bilirlər ki, onlara xalqımızın, cəmiyyətimizin heç bir siyasi dəstəyi yoxdur". Bunu Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.***




T.Novruzov dağıdıcı müxalif ünsürlərə məsləhət verməyi də unutmayır: "Yaxşı olardı ki, müxalifət boş-boş hərəkətlərlə məşğul olmaqdansa, xeyirli bir işin qulpundan yapışıb, cəmiyyətimizin inkişafına dəstək olmağa çalışsınlar. Dağıdıcı müxalifələr özləri özlərini aldatmaqla məşğul olurlar. Müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq ümid edirlər ki, nə vaxtsa onlar da nəyə isə nail ola biləcəklər. Təbii ki, onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni, müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. Təəccüblü məqam odur ki, həmin liderçiklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu büruzə vermək istəmirlər. Bu isə onların faciəsidir".

T.Novruzov onu da bildirdi ki, Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər, Cəmil Həsənli və digər müxalif ünsürlər inkişaf etmiş Azərbaycan dövlətinin əldə etdiyi uğurlar çox narahat edir: "Bu baxımdan da, Azərbaycanın uğurlarına kölgə salmaq istəyirlər. Amma onların nə deməsindən və etməsindən asılı olmayaraq, Azərbaycan dövlətinin uğurlarına kölgə sala bilməyəcəklər. Azərbaycanla bağlı söylədikləri qara-yaxmalar artıq heç kəs tərəfindən qəbul olunmur. Çünki dünyanın güc mərkəzləri dövlətləri Azərbaycan dövlətini gücünü və qüdrətini çox yaxşı bilərlər. Yəni hər şey göz qabağındadır".

**Gülyana**

# ABŞ-ın reallaşan "arzusu"..?

***...Axır ki, ötən ay ABŞ-dan Avropaya mayeləşdirilmiş təbii qazın tədarükü "Qazprom"un bu regiona ixracını üstələyib. Qeyd edim ki, əslində ABŞ bununla böyük önəm verdiyi istəklərindən birini reallaşdırmış olub.***

Bu arada Beynəlxalq Enerji Agentliyinin rəhbəri Fatih Birol da "...bu yaxınlarda Rusiyanın Avropa İttifaqına təbii qaz tədarükünü kəskin şəkildə azaltması, ABŞ-dan Avropa İttifaqı ölkələrinə mayeləşdirilmiş təbii qaz idxalını artımına səbəb olduğunu etiraf edib. Yeri gəlmişkən, bu etirafı Rusiyanın ən böyük multimedia holdinqi "RosBusinessConsulting" da artıq edib.

Məsələ bundadır ki, amerikalılar belə bi addım atmaqla tarixdə ilkə imza atmış olublar. Deyim ki, təəssüflə də olsa, amma sonradan rus nəşrləri də bunu etiraf etmək məcburiyyətində qalıblar. Bu arada Birolun sözlərinə görə, bütün bunalara baxmayaraq, amma Avropa İttifaqı qaza daxili tələbatı azaltmaq və sərt qışa hazırlaşmaq üçün indidən səy göstərməlidir.

Xatırladaq ki, iyunun 14-də "Qazprom "Şimal axını" vasitəsilə gündəlik qaz nəqlini 167 milyon kubmetrdən 100 milyon kubmetrə qədər azaltdığını elan edib. Bunun "vəlvələ və ya zəlzələ" ilə əlaqəli olması ilə bağlı bir şey deyilməsə də, amma rus tərəfi əsas kimi bunu Portovaya kompressor stansiyasının qaz nasos aqreqatlarının təmirinin ləngiməsi ilə əlaqələndirib.

Xatırladaq ki, bir müddət bundan əvvəl Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov bir sıra Avropa ölkələrinə qaz tədarükünün azalmasını Kanada hakimiyyətinin tətbiq etdiyi anti-Rusiya sanksiyaları ilə əlaqələndirmişdi.

Belə ki, onun dediyinə görə, "Şimal axını" qazla təmin etmək üçün istifadə edilən Siemens turbinlərinin sıradan çıxmış hissələri təmir üçün Kanadanın Monreal şəhərinə göndərilsə də, amma hələ ki, həmən hissələrdən bir xəbər-filan yoxdur...yəni boru kəməri üçün turbinlər təmirdən geri qaytarılmayıb.

... Və bu arada, yəni iyunun 24-də Almaniya Federal Şəbəkə Agentliyinin rəhbəri Klaus Müller Rusiyanın "Şimal axını" qaz kəməri ilə Almaniyaya təbii qaz nəqlini dayandıracağını istisna etməyib. Onun sözlərinə görə, Federal Şəbəkə Agentliyi belə bir vəziyyətdə hələ ki, müxtəlif fəaliyyət ssenarilərini öyrənir. Maraqlıdır ki, Klaus Müller Rusiya ilə əməkdaşlığa son vermək ehtimalı səbəblərini də açıqlayıb. Belə ki, Müllerə görə, onların əksəriyyəti "xoşagələn deyil və ya qışın sonunda çox az qaz, ya da payız və ya qışda çox çətin vəziyyət deməkdir".

...Deyim ki, bizlərdə, ötəri də olsa "əsil dənizçi səliqəsi" (?) "olduğu kimi", Almaniya əsrlər boyu nizam sinonimi olub və...olaraq qalmaqdadır.

**Ağasəf Babayev**



*Son dövrlərdə cəmiyyətimizdə bəzi qüvvələr tərəfindən milli-mənəvi dəyərlərə qarşı hücumlar artıb. Bu hücumları təşkil edənlər əxlaqi kriteriyalara, mənəvi dəyərlərə qarşı təbliğat aparır, öz əxlaqını, vicdanını, namusunu- ailə dəyərlərini qoruyan insanları geridəqalmış kimi qələmə verməyə çalışırlar.*



# Mənəvi dəyərlər milli təhlükəsizlik kontekstində

*"Azərbaycan öz milli-mənəvi kökləri üzərində inkişaf etməlidir, nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq"- İlham Əliyev*



ANALİZ

## Milli-mənəvi dəyərlər elmi-texniki inkişafa mane olurmu?

Avropa dəyərləri adı altında bəzi beynəlxalq və yerli mərkəzlər tərəfindən bizə sürətlə və ardıcıl sırınan dəyərlərin mənəvi tərəfləri faciədir. Bu mənəvi deqradasiyanın Qərb cəmiyyətlərini hansı sosial-mənəvi faciələrə gətirib çıxardığı haqda çoxsaylı faktlar və elə Qərb tədqiqatçılarının bu mövzuda ciddi əsərləri var.

Qloballaşma prosesində birtərəfli inteqrasiya ciddi problemlərə yol aça bilər. Bəzi dairələr bəzi Qərb ölkələrinin iqtisadi və texniki inkişafını əsas götürüb bizim də onların mənəvi dəyərlərini qəbul etməyimizə çağırır və deyirlər ki, görürsünüzmü, Qərb ölkələri mənəvi dəyərləri kənara atıblar deyə necə inkişaf ediblər.

Lakin bir ağıllı çıxıb onlara Yaponiyanı nümunə göstərəndə boğazları quruyur. İndi necə izah etsinlər ki, yaponların timsalında bir xalq öz dəyərlərini, mədəniyyətini, dinini, ənənələrini, əxlaqını qoruyaraq da dünyanın ən inkişaf etmiş xalqına çevrilə bilir. Daha bir belə nümunə kimi Çini göstərmək olar. Tərslikdən də, Çin və Yaponiya Qərbdə yox, Şərqdə yerləşirlər. Deməli, elmi-texnoloji, sosial-iqtisadi inkişaf üşün heç də yad dəyərləri qəbul etmək vacib deyil. Ona görə də, ölkəmizdə mütamadi olaraq xarici dairələrdən alınan qrantlarla təşkil olunan kampaniyaların nə məqsədə xidmət etdiyi aydındır.

## İnsan hüquqları, yoxsa anarxik əxlaqi deqradasiya?

İkinci arqument insan hüquqları adı altında cəmiyyətimizə sırınan dəyərlərdir. Məsələn, qadın hüquqları, uşaq hüquqları, cinsi azlıqların hüquqları adı altında. Bizim cəmiyyətdə qadınlar, uşaqlar, xəstələr kimsə tərəfindən əzilirmi? Psixi xəstələr tərəfindən edilən tək-tük kriminal hərəkətləri nəzərə almasaq, xeyr!

Kişilərin həmişə qadınlara diqqətlə, qayğıyla, fədakarlıqla yanaşdığını görmüşük. Azərbaycan qadını həm evinin, ailəsinin xanımı olub, həm də cəmiyyətə faydalı ictimai fəaliyyət göstərib. Qadın azadlığı budur, indi kommersiya TV-lərində, seriallarda, sosial şəbəkələrdə təbliğ olunanlar deyil. Bizdə uşaqlar döyülüb öldürülürmü? Xeyr! Sadəcə valideyn bəzən tərbiyəsi pozulmasın deyə uşağına qulaqburması verir. Əks halda, həmin uşağın axırı hippiyə, emoya, ən yaxşı halda cinayətkara və ya narkomana çevrilər. Uşağını qorumaq, onun tərbiyəsinin pozulduğunu gördükdə cəzalandırmaq valideynin borcu və haqqıdır.

Məgər dövlət cinayət törədən vətəndaşı cəzalandırmırmı? Məgər bəzi qayda və qanunlar, tələblər havayı yerəmi qoyulub? Məgər valideynin öz uşağını danlamağa, qulaqburması verməyə haqqı çatmamalıdır? Bəlkə yeniyetmə qızcığaz gecə saat 3-də pritondan atasına zəng eləyib desin ki mənim bəzi vacib işlərim var, özüm kefim istəyəndə evə gələcəm? Xeyr, bağışlayacaqsınız, bunlar hüquq deyil, anarxiyadır, mənəvi deqradasiyanın kulminasiyasıdır.

İndi isə keçək yad dəyərlərin təbliğatçılarının ən yaralı yerlərindən birinə- cinsi azlıqların hüquqları məsələsinə. Bizim cəmiyətdə cinsi azlıq nümayəndəsi şallaqlanırmı, ya da ictimai yerlərdən qovulurmu? Xeyr! Onlara vəziyyətdən asılı olaraq ya xəstə kimi, ya da əxlaqi cəhətdən pozğun adam kimi baxırlar. Onlar digər vətəndaşların istifadə etdiyi bütün sosial və sair hüquqlardan yararlanırlar. Bəlkə onlara, eyni işə görə normal adamlardan az maaş verilir, bəlkə onlar əmlak, sosial təminat, əmək hüququ məsələlərində ayrı-seçkiliyə məruz qalırlar? Xeyr.

## Dəyərlər niyə dəyişməlidir və ya necə dəyişməlidir?

Mənə şəxsən aydın deyil, inkişaf etmək üçün mənəvi dəyərləri yad mədəniyyətlərdənmi qəbul etməliyik, özümüzünkü yaramırmı? Yaramırsa, niyə misal üçün Sovet dövründə, həm mənəvi-əxlaqi dəyərlərimizi qoruyurduq, həm də ictimai, sosial, mədəni, elmi, texnoloji inkişaf gedirdi? Elə indi də, milli-mənəvi dəylərlərimiz elmi-texniki inkişafımıza heç bir problem yaratmır.

Deməli, inkişaf üçün milli-mənəvi dəyərləri itirməyə, onu yad dəyərlərlə əvəzləməyə ehtiyac yoxdur. Hər mədəniyyətin özünün psixoloji-ruhi-mənəvi dəyərlər sistemi var. Elmi-texnoloji, sosial-iqtisadi inkişafın bura heç bir dəxli yoxdur. Olsaydı, konservativ Yaponiya və ideoloji Çin ilə rasional Amerika və novator Avropa arasında bu sahələrdə fərq olardı. Bəs onda nə baş verir? Əslində, nə baş verdiyi, necə baş verdiyi yox (bunlar məlumdur), niyə baş verdiyi müzakirə obyektidir.

Dəyərlər dəyişib, dəyişir, dəyişəcək. Amma bu dəyişmə mütləq mənfi istiqamətdəmi olmalıdır? Müsbətə doğru dəyişmək olmazmı? Olar! Yaxşı, bəs onda nə deyib bizim ailə institumuzu dağıtmaq, cəmiyyət əxlaqını dəyişmək istəyirlər? Çətin sualdır. Bunu bu işlə ciddi məşğul olan şəbəkənin nümayəndələrindən soruşanda boğazları quruyur.

## Əxlaqsızlığın təbliğinə görə sərt cəzalanma olmalıdır

Ümumiyyətlə, ölkədə qadın alverinin, narkotikanın, digər zərərli və təhlükəli halların təbliği, hətta internetdə təhqir qadağandırsa, onda əxlaqsızlığın təbliği də qanunla qadağan olunmalıdır. Mediada və sosial şəbəkələrdə milli-mənəvi dəyərlərə təcavüzə qarşı daha ciddi tədbir görməlidir. Bu, bir milli təhlükəsizliik məsələsidir. Necəmi?

Heç kəsə sirr deyil ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CİA) rəhbəri Allen Dallesin SSRİ-yə qarşı məşhur "Məhvetmə" planına bənzər doktrinaların hazırda hələ tam mənəvi deqradasiyaya uğramamış cəmiyyətlərə, o cümlədən Azərbaycana tətbiq edilməsinə çalışılır. Əxlaqsızlığın təbliği xüsusi mərkəzlər tərəfindən peşəkarcasına idarə və təşkil olunur. Dallesin planından mövzumuza birbaşa aidiyyatı olan bəzi detallara nəzər salaq. "...Biz bütün gücümüzü insanların axmaqlaşdırılması və səfeh yerinə qoyulmasına yönəldəcəyik!

İnsan beynində xaos yaradaraq, onların dəyərlərini saxtalarıyla dəyişəcəyik və onları bu saxta dəyərlərə inanmağa məcbur edəcəyik. Necəmi? Biz orada öz həmfikirlərimizi, müttəfiqlərimizi tapacağıq.

Məsələn, incəsənət və ədəbiyyatdan tədricən onun sosial mahiyyətini çıxaracağıq... Ədəbiyyat, teatr, kino ən alçaq insani hissləri təsvir və mədh edəcək. Biz insanların şüuruna seks, zorakılıq, sadizm, satqınlıq kultunu, bir sözlə hər cür əxlaqsızlığı yeridən və yayan adamları dəstəkləyəcəyik

Çox az adam nə baş verdiyini başa düşəcək. Lakin biz onları köməksiz vəziyyətə salacaq, gülüş obyektinə çevirəcəyik, onları şərləməyin və cəmiyyətin tör-töküntüsü adlandırmağın yolunu tapacağıq. Xalq əxlaqının əsaslarını təhrif edərək məhv edəcəyik.

Biz bu yolla nəsli nəslin ardınca sarsıdacağıq. İnsanların üzərində uşaq, yeniyetmə yaşlarından işləyəcəyik, əsas stavkanı isə həmişə gənclərə edəcəyik- onları mənəviyyatca korlayacaq, onlardan həyasız, heyvərə və kosmopolitlər düzəldəcəyik. Biz bunu bax belə edəcəyik!".

## Mənəvi deqradasiya milli təhlükəsizlik üçün təhdiddir

Əlbəttə, heç bir mənəvi dəyərə malik olmayan cəmiyyəti dağıtmaq, onu özünə tabe etmək, istismar etmək asandır. Axı yalnız möhkəm əxlaqi, mənəvi bazaya malik insanlar öz ailəsi, öz vətəni, öz xalqı uğrunda döyüşürlər. Biz bunun əyani nümunəsini sonuncu dəfə 2022-ci ilin payızında 2-ci Qarabağ müharibəsində gördük. Vətənpərvər, namuslu, əxlaqlı insanlarımız öz canlarını qurban verib vətənimizi azad etdilər.

İndi sadəcə düşünək- müasirlik adı altında mənəvi dəyərlərə tüpürən, həyatını ancaq əyləncə üzərində quran, bivec həyat tərzi sürən, eqoist və yelbeyin gənclər öz vətəni, öz xalqı uğrunda canını qurban edərmi? Əlbəttə ki xeyr. Bax təkcə bu nümunədən gənc nəsli milli-mənəvi dəyərlərimizin bazasında formalaşdırmağın xalqımız və dövlətimiz üçün həyati əhəmiyyətli məsələ olduğunu anlamaq olar.

Ona görə də, dövlətimiz milli-mənəvi ideoloji baza üzərində inkişaf siyasəti yürüdür. Bu siyasət milli-mənəvi dəyərləri qoruyaraq dünyaya inteqrasiya etməyi özündə ehtiva edir. Yazıma Prezident İlham Əliyevin bu məsələlərə həsr olunmuş çıxışlarından bir neçə fraza ilə yekun vurmaq istərdim:

"Biz milli-mədəni dəyərlərimizi gələcək nəsillər üçün qorumalıyıq ki, Azərbaycanın davamlı, uzunmüddətli inkişafı təmin edilsin. Biz öz köklərimizə həmişə bağlı olmalıyıq və gənc nəsil də bu ruhda tərbiyə almalıdır.... Bəzi ölkələr qloballaşma adı altında öz təsir dairələrini genişləndirmək, xalqları bir növ öz milli köklərindən ayırmaq, qoparmaq, o tarixi bağları qırmaq istəyirlər... İstəyirlər ki, xalqlar öz köklərindən ayrılsınlar, öz əcdadlarını, tarixlərini unutsunlar, sadəcə amorf, kosmopolit bir kütləyə çevrilsinlər ki, onları istənilən istiqamətə göndərmək mümkün olsun. Budur bunun təməlində dayanan əsas məqsəd.

...Bəzi hallarda belə sözlər işlədilir ki, biz inteqrasiya etməliyik, Avropaya inteqrasiya etməliyik. Mən artıq dəfələrlə demişəm, biz heç yerə inteqrasiya etməməliyik. Biz öz milli dəyərlərimiz üzərində möhkəm dövlət, bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Nə qədər ki, bizim hökumət iqtidardadır, bu, belə olacaq".

***Elçin Bayramlı***

***Yazı Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Milli Mətbuat Günü münasibəti ilə jurnalistlər arasında "Vicdan azadlığı və media" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur.***

# Azərbaycanın Qarabağda yeni əməliyyatlar aparması üçün daha bir ehtimal var!



***Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcərdə etdiyi çıxışı və orada səsləndirdiyi bəyanatı ilk olaraq belə nəticəyə gəlməyə zəmin yaradır ki, 44 günlük müharibədən sonra - 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfi bəyanat və oradan irəli gələn müddəalar kapitulyant Ermənistan tərəfindən icra edilməməkdədir. Daha dəqiq desək, rəsmi İrəvan regionda sülhün əldə olunması istiqamətində aparılan işlərə, sözün əsl mənasında, pəl vurmaqla, prosesi uzatmaqla Bakının səbrini tükəndirir.***

*Digər məsələlərlə yanaşı, Qarabağ ermənilərinin pozulan hüquqları da bərpa edilməlidir*





Əbəs deyil ki, dövlətimizin başçısı son xəbərdarlıqlarından birini də edərək vurğuladı ki, kağızlar masa üzərində əbədi qala bilməz və Ermənistan üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməyə məhkumdur.

### Bakı heç də legitim yollar axtarmır, belə ki, bu legitimliklər artıq mövcuddur

Onu da qeyd edək ki, İlham Əliyevin bəyanatından öncə Nikol Paşinyan hakimiyyətinə yaxın olan KİV-lərdən birinə verdiyi müsahibəsində Bakının yeni müharibəyə başlaması üçün legitim yollar axtardığını bildirib. Əslində, o yanılmayıb və Bakı heç də legitim yollar axtarmır, belə ki, bu legitimliklər artıq mövcuddur. Sadəcə, Azərbaycan səbr, təmkin nümayiş etdirməklə yanaşı, həm də xəbərdarlıq notlarını qarşı tərəfə çatdırır.

Bu arada onu da xatırladaq ki, Ermənistan rəhbərliyi hələ də Qarabağdakı separatçılarla əlbirliyini, işbirliyini davam etdirir və biz bunu ölkənin müdafiə nazirliyinin rəsmisinin Qarabağa müqaviləli hərbi qulluqçular göndərməsi ilə bağlı fikirlərindən də görə bilərk. Lakin belə olan halda Bakının daha bir legitimlik hüququ barədə bəzi qeydlərimizi apara bilərik. Daha dəqiq desək, Azərbaycanın Qarabağda əməliyyatlara başlaması üçün daha bir səbəbi var - Azərbaycanın Qarabağ regionunda yaşayan erməni əhalisinin hüquqlarının təmin olunması səbəbi!

### Qondarma və quldur rejimin "milli təhlükəsizlik xidməti" adlandırılan terrorçu qrupları Qarabağda yaşayan erməniləri təqib edir və Azərbaycan vətəndaşlığı almaq istəyənləri müxtəlif üsullarla neytrallaşdırırlar

Hələ 2020-ci ilin 10 noyabr üçtərəfli bəyanatı imzalandıqdan sonra biz separatçı tör-töküntülərin Qarabağda yaşayan ermənilərə qarşı repressiyalar uyğulamalarının şahidləri olmuşuq. Misal üçün, bir erməni ananın dörd övladı ilə Azərbaycanın nəzarəti altında olan ərazilərə daxil olması və Azərbaycan vətəndaşlığını almaq istəməsinin qarşısının alınması, bu kimi daha bir neçə hadisələrin baş verməsi ilə həmin insanlara qarşı təzyiqlərin göstərilməsi faktları kifayət qədərdir.





Qondarma və quldur rejimin "milli təhlükəsizlik xidməti" adlandırılan terrorçu qrupları Qarabağda yaşayan erməniləri izləyir, təqib edir və Azərbaycan vətəndaşlığı almaq istəyənləri müxtəlif üsullarla neytrallaşdırırlar. Bu isə bilavasitə onların hüquqlarının pozulması anlamını daşıyır.

Məlumatlara görə, qarabağlı ermənilərin reinteqrasiyası planlı rejimdə aparılmalıdır. Lakin separatçı terrorçular yeri erməniləri sözün əsl mənasında kütlə-kütlə həbs edirlər, nədir ki, onlar Azərbaycan tərəfi ilə kontaktlara gedirlər və vətəndaşlıq almaq istəyirlər. O cümlədən, reinteqrasiya olunmaq fikrində olanlara maliyyələr, hədiyyələr də təqdim edilir ki, onlar bu vasitələrlə ələ alınırlar.

Araik Arutyunyan və Bitali Balasanyan kimi hərbi cinayətkarlar isə vaxtilə Qarabağın resurslarını talan edirdilərsə, indi də "tikinti", "inşaat" adı altında göndərilən pul-paraları oğurlayırlar

Beləliklə, hazırda Qarabağ ermənləri özlərini aldadılmış hiss edirlər - Ermənistan vaxtilə onlara "təhlükəsizlik zəmanəti" verirdi, amma indi Ermənistan heç özü-özünün təhlükəsizliyinə zəmanət verə bilmir. Rusiya sülhməramlı qüvvələri isə müvəqqəti olaraq həmin ərazilərə yerləşiblər.

Üstəlik, həmin ərazilərin heç bir iqtisadi perspektivi də yoxdur. Araik Arutyunyan və Bitali Balasanyan kimi hərbi cinayətkarlar isə vaxtilə Qarabağın resurslarını talan edirdilərsə, indi də "tikinti", "inşaat" adı altında göndərilən pul-paraları oğurlayırlar.

Nəticədə Azərbaycan üçün daha bir legitimlik yolu açılır - hərbi cinayətkarların, terrorçuların qamçıları altında vurulan, əzilən Qarabağ ermənilərinin hüquq və azadlıqlarını təmin etmək üçün hərəkətə keçmək.

***Rövşən RƏSULOV***

***Polina Radaeva Azərbaycanın ən mənzərəli rus kəndlərindən biri olan İvanovkada yaşayır. 45 ildən çox İvanovo orta məktəbində işləyir. Polina Nikolayevna etiraf edir ki, həyatını doğma kəndi olmadan təsəvvür edə bilmir: "Bura mənim evim, qohumlarım və dostlarımdır. Və mən heç vaxt buranı tərk etməyəcəyəm". Moskva-Baku portalının müxbiri Polina Radayeva ilə söhbət edib, o, ivanovoluların iş günlərindən, gənc kənd sakinlərinin rus dilinə xüsusi marağından danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Polina Radayeva: "Heç yerdə öz yurdundakı qədər rahat nəfəs ala bilməzsən"



***- Siz Azərbaycanın ən məşhur rus kəndlərindən birində- SSRİ dövründən ölkədə qalmış yeganə kolxozun fəaliyyət göstərdiyi İvanovkada doğulub boya-başa çatmısınız. Bizə danışardınız, əcdadlarınız Azərbaycanda necə yaşayıblar?***





- Bəli, mənim həyatım bu kəndlə bağlıdır. Anam Tatyana Pavlovna Şçeqlova İvanovkada anadan olub və bütün ömrünü burada yaşayıb. Atam Nikolay Timofeyeviç mən çox gənc olanda ailəni tərk edib. Mən anam və nənəm tərəfindən böyüdülmüşəm. Nənəmin əcdadları Azərbaycana XIX əsrin ortalarında Rusiyanın mərkəzi hissəsindən köçüblər. Rus kilsə islahatını qəbul etmək istəmədikləri üçün qovulublar. 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra bir çox rus kəndliləri, yəni molokanlar və duxoborlar bu ərazidə məskunlaşmağa başlayıblar. Altı il sonra, 1834-cü ildə 11 molokan ailəsi burada kənd salıb. Sonralar kəndin əhalisi Tambov, Voronej, Rostov və Stavropoldan yeni gələn molokanların hesabına artıb. 1840-cı ildən kənd İvanovka adlandırılmağa başlanıb. Zaman keçdikcə ulu babam kənddə ev tikib, təsərrüfatla məşğul olmağa başlayıb. Biz azərbaycanlılarla bir yerdə yaşayırıq. Heç vaxt aramızda hər hansı bir münaqişə və mübahisə olmayıb. Və bu,həmişə belə olub.

Mən İvanovo məktəbində oxumuşam, yeri gəlmişkən, bu, kənddə yeganə məktəb idi. Yaxşı oxuyurdum, rus dili və ədəbiyyatına böyük diqqət yetirirdim. Mən müəllimim Mariya İvanovna Orlova-Skokovaya rus dilinin bütün gözəlliyini və dərinliyini üzə çıxarmaqda mənə kömək etdiyinə görə çox minnətdaram. Məhz o zaman müəllim olmağa qərar verdim.

Məktəbi bitirdikdən sonra Bakıya Axundov adına Pedaqoji İnstitutuna daxil oldum. Müəllimlik diplomunu alıb doğma kəndimə qayıtdım. 1978-ci ildən bu günə kimi doğma məktəbdə çalışıram. Əvvəlcə rus dili və ədəbiyyatı müəllimi, sonra- tədris şöbəsinin müdiri və qiyabi məktəbin direktoru kimi. Bu gün İvanovka məktəbində baş müəllim işləyirəm. Və etdiyim işi çox bəyənirəm.

İvanovkada ilk məktəb ictimai məktəb idi. 1887-ci ilə qədər orda və ibadət evlərində dərslər keçirilirdi. Mövsümi oxuyurdular: yazda-yayda işləyirdilər, payızda-qışda dərsə gedirdilər. Qızlar və oğlanlar ayrı oxuyurdular. Məktəbdə gün ənənəvi olaraq Rusiya İmperiyasının "Tanrı çarı qorusun!" himninin ifası ilə başlayırmış. 1887-ci ildə İvanovkada ilk məktəb tikilib, 11 ildən sonra yeni binaya köçüb. 2006-cı ildə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın köməyi ilə İvanovkada müasir tipli məktəb tikilib, bu gün burada müxtəlif millətlərdən olan 400 uşaq-azərbaycanlı, rus, ləzgi təhsil alır. Məktəbimiz Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adını daşıyır.

***- İvanovkalılar bu gün nə ilə və necə yaşayırlar?***

- Əvvəllər İvanovkada ruslar daha çox idi. Demək olar ki, hamısı yerli kolxozda işləyirdi. Ötən əsrin 80-ci illərinin sonlarında "perestroyka" adlanan prosesdən sonra hər şey dəyişdi. Bəzi molokan kəndliləri Rusiyadakı tarixi vətənlərinə qayıtmaq qərarına gəliblər. Orada yeni həyata başlayacaqlarını düşünürdülər. Ailəmiz doğma İvanovkada qaldı və heç vaxt bundan peşman olmadı. Bu bizim evimizdir, yurdumuzdur. Ürəyinə çox əziz olan hər şeydən necə imtina edə bilərsən?

Bu gün İvanovkada əvvəlki kimi ruslar və azərbaycanlılar sülh və dostluq şəraitində yaşayırlar. Bayramları və ailə şənliklərini birlikdə qeyd edirik. Novruz bayramı üçün şəkərbura və paxlava bişiririk, Pasxa tortları, pançak bişiririk. Kənd camaatı bir-birinə böyük hörmətlə yanaşır. Biz özümüzü böyük bir ailə kimi hiss edirik, burada bir-birimizə dəstək olmaq və kömək etmək adətdir. Və bu həmrəylik bizə həmişə kömək edir.

Ümumiyyətlə, Azərbaycanda başqa millətlərin nümayəndələrinə, o cümlədən ruslara həmişə hörmətlə yanaşılıb. İşlədiyim məktəbdə elə siniflər var ki, orada uşaqlar həm Azərbaycan, həm də rus dilində təhsil alırlar. Onlar bir-birləri ilə yaxşı anlaşır və hansının hansı millətdən olduğunu düşünmürlər. Tələbələrimiz oxumağı sevir, rus ədəbiyyatını sevir. Məktəbdə biz rus klassiklərinin- Aleksandr Puşkinin, Lev Tolstoyun, Sergey Yeseninin yaradıcılığına həsr olunmuş ənənəvi ədəbi gecələr təşkil edirik. İvanovka məktəbliləri Bakıda Rus Evinin keçirdiyi bütün ədəbi tədbirlərin daimi iştirakçılarıdır. Müsabiqə və olimpiadalarda onlar nəinki məşhur əsərlərdən parçaları ifadəli oxuyur, həm də kostyumlu tamaşalar göstərir, rus şairlərinin şeirləri əsasında mahnı və romanslar oxuyurlar.

***- Rusiyadakı tarixi vətəninizə köçmək istəyiniz olubmu? Sizi İvanovkada saxlayan nədir?***

- Mən heç vaxt doğma kəndimi tərk etməyəcəyəm. Azərbaycan üçün ən çətin anlarda, ölkədə xaosun, iqtisadi böhranın hökm sürdüyü vaxtlarda da hər şeyi atıb getmək istəyim yox idi. İnanırdım ki, Azərbaycan bütün çətinliklərə qalib gələcək və yenə güclənəcək, çiçək açacaq. Və belə də oldu. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından və rus icmasının meydana çıxmasından sonra İvanovkada həyat yaxşılaşmağa başladı. Mənim iki oğlum var. Böyük oğlum İqor orta məktəbi bitirdiyi Stavropolda yaşayır. O, taleyi ilə orada qarşılaşıb, ailə həyatı qurub və qalmaq qərarına gəlib. Polina və Marina adlı iki qızı böyüdür. Kiçik oğlum Sergey mənimlə İvanovkada yaşayır və heç yerə getməyə hazırlaşmır. Azərbaycanda biz çox rahatıq. Bu, bizim evimiz, işimiz, dostlarımızdır. Və heç bir yerdə evdəki qədər rahat nəfəs ala bilməzsiniz.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

Səs

2 iyul
2022-ci il

# Dərini Günəş şüalarından qorumaq üçün bunları edin!

*Havalar qızdıqca Günəş şüalarının dəriyə təsiri də artır. Günəş vannaları və ya qaralma adlanan proses ultrabənövşəyi şüaların təsiri nəticəsində dəri rənginin tündləşməsi və dərinin alt qatında melonin piqmentinin toplanmasıdır. Bəzi dəri xəstəliklərinin müalicəsi üçün günəş şüası məsləhət görülür. Ancaq bu zaman da diqqət yetirilməli məqamlar var.*



Həkim-dermatoloq Sevinc Məmmədovanın dediyinə görə, Günəş şüalarının təsiri dəri tipindən asılıdır: "Ağ dəri tipləri Günəşin təsirinə daha tez məruz qalır və ona görə həmin dəri tipinə malik olanlar daha az gün işığı altında olmalıdırlar. Dərisi nazik olanlarda epidermis qatında günəş yanıqları özünü daha dərindən göstərir. Dərisi qalın olanlarda isə Günəş ləkələri qalmır".

İnsan dərisi dörd tipə ayrılır. Ölkəmizdə əhalinin əksəriyyəti ikinci və üçüncü dəri tipinə sahibdirlər və bu da daha həssas olan dəri tipi sayılır, çünki günəş altında çox olarkən yanma ilə nəticələnir: "Günəşdən yaranan ləkələrdən qorunmaq üçün dəri tipinə uyğun olaraq SPF kremlər çəkilməlidir. Bununla yanaşı, nəmləndiricilərdən də istifadə olunmalıdır ki, dəridə quruluq və qabıqlanma yaranmasın".

Nəzərə almaq lazımdır ki, Günəşdən qoruyucu vasitələrin ömrü maksimum 2 saatdır. Dərinin rəngini və su balansını qorumaq üçün daha çox maye qəbul etmək və günəşə qarşı yağlardan istifadə etmək lazımdır.

# Bədəndə duz yığılmasının səbəbləri



***İnsan orqanizmi duzlarla zəngindir. Duzlar qandan sorularaq sidik kisəsində toplanır, kalsium, fosfor kimi maddələrin kristallaşması və həmin kristalların damarla birləşməsi nəticəsində daş yaranır.***

Kiçik daşlar hər hansı bir problemə səbəb olmadan bədəni tərk edə, böyük daşlar isə sidik kisəsinə doğru irəliləyərkən sidik axarına zərər verə bilər. Maddələr mübadiləsinin pozulması, çirkli su içmək, eyni cür qidalanma, dərmanların qeyri-düzgün istifadə, həmçinin A və D vitaminlərinin çatışmazlığı böyrəkdə duz yığılmasının əsas səbəbləri sırasındadır. Bununla yanaşı, irsi faktor də əsas rol oynayır.

Medicina.az AZƏRTAC-a istinadən xəbər verir ki, həkim-uroloq Rauf Nağıyev deyib "Yediyimiz qida, duzun çox istifadəsi, şorabalar ekzogen faktorlara aiddir. Lakin bu, orqanizmdə duz yığılmasının əsas səbəbi deyil. Duzun çox istifadəsi sidikdə duzların konsentrasiyasını artırır, lakin daşın əmələ gəlməsi üçün bu, əsas səbəb hesab olunmur".

Böyrək daşlarına kişilərdə qadınlara nisbətən daha sıx rast gəlinir. Böyrək daşı olanlarda yenidən yaranma ehtimalı yüksəkdir.

Həkim-uroloq böyrəkdə daşın yaranmaması üçün məsləhətlər də verib: "Əsas profilaktika çoxlu maye qəbulu və təmiz su içilməsidir. Sutka ərzində 2 litrdən az olmamaq şərtilə maye qəbul edilməsi tövsiyə olunur.

Böyrəkdə duzlaşma varsa, maye çox qəbul edəndə onun konsentrasiyası azalır və daşın əmələ gəlməsi, böyüməsi ehtimalı az olur. Zülalla zəngin olan qidaların qəbulunun, xüsusilə bulyonların, sousların istifadəsinin azaldılması da məsləhətdir".

Çox böyük daşlar dəridən böyrək içərisinə yerləşdirilən boru vasitəsilə çıxarılır. Nadir hallarda isə böyrək daşları laparoskopik və ya açıq əməliyyatla çıxarılır. Mütəxəssislər ildə bir dəfə böyrəklərin müayinə olunmasını da məsləhət görürlər, bu, daşlaşma ilə əlaqədar erkən müdaxiləyə imkan yaradır.

# "Barselona" teleyayımdan 267 milyon avro qazanacaq




***"Barselona" İspaniya La Liqasındakı oyunlarının yayımına dair televiziya hüquqlarının 10 faizini ABŞ-ın "Sixth Street Partners" şirkətinə satıb. Bu barədə katalon klubunun rəsmi saytı xəbər yayıb. Kataloniya təmsilçisinin açıqlamasında bildirilib:***

"Bu gün "Barselona" idman biznesində böyük təcrübəyə malik aparıcı qlobal investisiya şirkəti olan "Sixth Street"lə klubun maliyyə resurslarının və rəqabət qabiliyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addım atdığını elan edir.

Bu müqavilə ilə "Barcelona" cari mövsüm üçün 267 milyon avro ümumi qazanc əldə edir. "Sixth Street" ilkin olaraq 207,5 milyon avro sərmayə qoyacaq və bunun müqabilində növbəti 25 il ərzində klubun La Liga TV hüquqlarının 10%-ni alacaq". Xatırladaq ki, "Barselona" ötən mövsüm La Liqanı 2-ci pillədə başa vurub.

# Kəklikotu çayı erkən yaşlanmanı ləngidir?



Kəklikotu çayı soyuqdəymə, bronxit və öskürək kimi xəstəlikləri aradan qaldırır, selikli qişaları qurudur və öskürəkdən xilas olmaq üçün bronxial keçid spazmını sakitləşdirir. Eyni zamanda, infeksiyalara qarşı mübarizə aparan antiseptik xüsusiyyətlərə malikdir. Boğaz ağrısını və öskürəyi sakitləşdirir. Kəklikotunun tərkibi efir yağları, minerallar, faydalı fenollar və flavonoidlərlə zəngindir. Kəklikotu xora, iltihab problemlərindən əziyyət çəkənlər üçün də olduqca faydalıdır.

Belə ki, kəklikotu ayaqlarda baş verən revmatik ağrılar zamanı əzələlərin yığılmasının qarşısını alır və ağrıları yüngülləşdirir.

Kəklikotunun antiviral təsiri səbəbindən qripin tez və yüngül keçməsinə kömək edir. Yüksək hərarət, öskürək, boğaz ağrısı, iştahasızlıq, əzələ və sümüklərdə ağrılar qripin ən əhəmiyyətli əlamətləridir. Gün ərzində 3 dəfə kəklikotu çayı içməklə bu halların qarşısını almaq mümkündür.

Kəklikotunun tərkibində olan karvakrol xərçəng xəstəliyindən qoruma xüsusiyyətinə malikdir və bu da bitkini potensial xərçənglə mübarizə aparan qida maddəsi edir. 2015-ci ildə "Anti-Cancer Drugs" jurnalında dərc edilən bir araşdırma göstərdi ki, karvakrol xərçəng hüceyrə xəttinin yayılmasına və hərəkətinə manea törədir.

Kəklikotu çayı tərkibindəki antioksidant və yüksək miqdarda flavonoidlər səbəbindən sağlam hüceyrə funksiyasını qoruyur, hüceyrələrdə və orqanlarda erkən yaşlanma əlamətlərinin qarşısını alır. Tədqiqatlar kəklikotunun yüksək təzyiq probleminə də yaxşı təsir etdiyini göstərib.

# Bank hesabından pul oğurlayan keçmiş məhkum yaxalanıb



Gəncə Şəhər Baş Polis İdarəsinin 4-cü polis bölməsinə iyunun 24-də şəhər sakini Ə.Rəcəbovun bank hesabından 369 manat pulun oğurlanması barədə müraciət daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Sumqayıt şəhər sakini, əvvəllər məhkum olunmuş C.Əsgərov müəyyənləşdirilərək saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

## ELAN

**YAP Nərimanov rayon təşkilatı tərəfindən Cəbrayıllı Elvin Arif oğluna verilmiş 613618 saylı üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılsın.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**